16 (1425) 23-29 aprel 2026-cı il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "Əminəm ki, Latviya Prezidentinin bu səfəri ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacaq"

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatında bildirib. Dövlətimizin başçısı latviyalı həmkarı ilə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə ikitərəfli gündəliyin müxtəlif aspektlərini müzakirə etdiklərini, eyni zamanda, beynəlxalq məsələləri nəzərdən keçirdiklərini vurğulayıb.



## Prezident İlham Əliyev latviyalı həmkarını Azərbaycan-Ermənistan sülh prosesi barədə məlumatlandırıb

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti Edqars Rinkeviçsə Azərbaycanla Ermənistan arasında sülh prosesi haqqında məlumat verib.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatında bildirib. Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında artıq de-fakto sülhün olduğunu, hər iki ölkənin liderinin ötən il Ağ Evə dəvət edildiyini, Birgə Bəyannamənin imzalandığını, xarici işlər nazirləri tərəfindən sənədin parafllandığını diqqətə çatdırıb.

## "Azərbaycan əsas daşımalar qovşağı kimi öz rolunu gücləndirir"

"Azərbaycan inklüziv və dayanıqlı inkişafı davam etdirir. Son iki onillik ərzində, iqtisadiyyatımız təxminən dörd dəfə artmış, yoxsulluq və işsizlik isə təqribən 5 faiz səviyyəsinə düşmüşdür. Sosial müdafiə və infrastruktur sahəsində böyük sərmayələr, hazırda, sayı 10 milyonu keçmiş əhalimizin rifahını yaxşılaşdırmışdır".

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının səksən ikinci sessiyasının iştirakçılarına müraciətində yer alıb.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan, BMT-nin 2030-cu il Gündəliyini milli inkişaf strategiyalarına daxil edərək, yoxsulluğun azaldılması, təhsil və səhiyyə sahələrində nailiyyətlər qazanaraq, heç kəsi diqqətdən kənarda qoymamaq prinsipinə qəti şəkildə sadiq çıxdığımızı əks etdirən könüllü milli hesabatlarını dövri olaraq təqdim edərək, Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmişdir.

**17 aprel 2026-cı il**

Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

* * * *

Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüşü olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 5-ci Antalya Diplomatiya Forumu çərçivəsində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.

* * * *

Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib.

## İspaniya ilə iqtisadi tərəfdaşlıq genişləndirilir

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti İspaniyaya səfər edib. Səfər çərçivəsində İspaniya-Azərbaycan Dəyirmi Masası, İkinci İspaniya-Azərbaycan Strateji İqtisadi Dialoqu və İspaniya rəsmiləri ilə görüşlər keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Madriddə təşkil olunan İspaniya-Azərbaycan Dəyirmi Masasında hər iki ölkədən dövlət qurumları və şirkətlərin nümayəndələri iştirak ediblər.

Elnur Əliyev Azərbaycanın İspaniya ilə münasibətlərə önəm verdiyini vurğulayıb. Qeyd olunub ki, İspaniya ilə ticarət, investisiya, enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, texnologiya, innovasiya və digər sahələr üzrə birgə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Ölkələrimizin bu potensialı real nəticələrə çevirməsi mühüm əhəmiyyət daşıyır. Azərbaycanın işgüzar mühiti haqqında da məlumat verilib. Bildirilib ki, ölkədə ticarət, istehsal və logistikanı dəstəkləyən investisiya platformaları fəaliyyət göstərir. Bu kontekstdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı yaxınlığında yerləşən Ələt Azad İqtisadi Zonası, sənaye zonaları, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sərmayədarlar üçün yaradılan imkanlar diqqətə çatdırılıb.

İspaniyanın ticarət üzrə dövlət katibi Amparo Lopes Senovilya ikitərəfli iqtisadi münasibətlərin inkişafını yüksək qiymətləndirib, qarşılıqlı investisiya və biznes əlaqələrinin genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Tədbirdə Azərbaycanın investisiya mühiti və biznes imkanları barədə təqdimat keçirilib, tərəfdaşlığın möhkəmləndirilməsinə dair müzakirələr aparılıb.

## "Azərbaycan-Ermənistan nümayəndələrinin qarşılıqlı səfərləri normal mühitin bərqərar edilməsinə töhfə verir"

"O vaxtdan (Ağ Evdə Birgə Bəyannamənin imzalanması - red.) bəri bir çox irəliləyiş olub. Ticarət edilir, xüsusilə də Azərbaycandan Ermənistana yanacaq məhsulları ixrac olunmağa başlayıb".

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatında səsləndirib. Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyətinin, media nümayəndələrinin qarşılıqlı səfərlərinin və görüşlərinin olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bunun normal mühitin bərqərar edilməsinə töhfə verdiyini vurğulayıb.

## "Latviya ilə Azərbaycan strateji tərəfdaş ölkələrdir"

"Bu gün çox pozitiv, praqmatik və gələcəyə yönəlmiş müzakirələr apardıq".

Bunu aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında bildirib.

Ölkəsinin Azərbaycanla strateji tərəfdaş olduğunu qeyd edən Latviya Prezidenti bildirib ki, bu gün Bakıda keçiriləcək biznes-forum Latviya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığa təkan verəcək.

Latviya Prezidenti görüşdə regional proseslərin ətraflı müzakirə edildiyini də vurğulayıb.

***"Azərbaycanın Trans-Xəzər nəqliyyat dəhlizi və enerji dəhlizində rolunu xüsusilə qeyd etmək istərdik. Bu, həm Latviya, həm də Avropa İttifaqı üçün əhəmiyyətli məsələdir"***, - deyə Latviya Prezidenti qeyd edib.

## "Yüksələn geosiyasi gərginlik onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır"

"BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası, dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan, BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır. Biz, xüsusən də, multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda bu mühüm işə töhfə verməkdən məmnunuq".

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının səksən ikinci sessiyasının iştirakçılarına müraciətində yer alıb.

"Görüşümüz artan qlobal qeyri-müəyyənlik dövründə baş tutur. Yüksələn geosiyasi gərginlik və genişlənən münaqişələr beynəlxalq sülh və təhlükəsizliyin həssaslığını, o cümlədən onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır. Bu xüsusda, Azərbaycan dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə özünün sarsılmaz sadiqliyini bir daha vurğulayır.

2021-ci ildə bu mötəbər qurumda ilk dəfə çıxış etdikdən sonra, Cənubi Qafqazda dərin transformasiya baş vermişdir. Azərbaycan özünün suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa etmiş, Ermənistanla sülh gündəliyinə başlamışdır. Ötən ilin avqustunda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın ev sahibliyi ilə keçirilmiş Vaşinqton Zirvə görüşündə Azərbaycan ilə Ermənistan arasında normallaşmada tarixi irəliləyiş əldə olunmuşdur.

Bu gün biz sülhün bəhrəsinin şahidiyik. Azərbaycan ilə Ermənistan arasında ticarət münasibətləri başlamışdır və hazırda, Azərbaycan Ermənistan üçün tranzit çıxışına şərait yaradır. Vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimadın qurulmasına töhfə verir", - deyə müraciətdə qeyd edilib.

## Prezident İlham Əliyev Antalyada Diplomatiya Forumunda iştirak edib

Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış edib.



Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğulayıb. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək deyib: ***"Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta Dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir".***

* * * *

Qeyd edək ki, geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci Forumun mövzusu "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edib.

# İrlandiya şirkətləri Azərbaycanda "yaşıl enerji" layihələrinə investisiya yatırmağa dəvət olunub




İrlandiya şirkətləri Azərbaycanda bərpa olunan enerji layihələrinə, o cümlədən istehsal və ötürmə sahələrinə investisiya yatırmağa dəvət olunub.

Trend xəbər verir ki, bu barədə energetika naziri Pərviz Şahbazovla İrlandiya-Azərbaycan parlamentlərarası işçi qrupunun rəhbəri Toni MakKormakın başçılıq etdiyi nümayəndə heyəti arasında keçirilən görüş zamanı bildirilib.

Görüşdə Azərbaycanla İrlandiya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri, xüsusilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Parlamentlərarası əlaqələrin münasibətlərin möhkəmləndirilməsində, eləcə də yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsində mühüm rolu vurğulanıb. Enerji sahəsində mövcud qlobal çağırışlar fonunda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə sabit və etibarlı enerji təchizatçısı kimi verdiyi töhfələr qeyd olunub. Ölkəmizin xam neft və təbii qaz ixracı, həmçinin enerji sisteminin şaxələndirilməsi çərçivəsində bərpa olunan enerji mənbələrinin inkişafı və regionlararası "yaşıl enerji dəhlizləri"nin yaradılması istiqamətində həyata keçirdiyi layihələr barədə məlumat verilib. İrlandiya nümayəndə heyəti ölkələrinin enerji keçidi siyasəti, bərpa olunan enerji mənbələrinin inkişafı və enerji infrastrukturunun modernləşdirilməsi istiqamətində görülən işləri diqqətə çatdıraraq, Azərbaycanla enerji sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını ifadə ediblər.

Görüşdə ötən il Azərbaycandan İrlandiyaya 532 min ton xam neft təchiz edildiyi qeyd olunub. Mayeləşdirilmiş təbii qaz (LNG) sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib, həmçinin İrlandiya şirkətləri Azərbaycanda bərpa olunan enerji layihələrinə, o cümlədən istehsal və ötürmə sahələrinə investisiya yatırmağa dəvət olunub.

# Xəzər dənizində "gəmidən-gəmiyə" üsulu ilə yanacaq təchizatına başlanılıb

"SOCAR Petroleum" QSC Xəzər dənizinin akvatoriyasında "gəmidən-gəmiyə" üsulu ilə yanacaq təchizatı (bunkerləmə) əməliyyatlarına başladığını elan edib.

QSC-dən bildirilib ki, bu addım şirkətin inkişafında yeni mərhələ olmaqla yanaşı, Azərbaycanın dəniz logistikasında və yanacaq təchizatı sahəsində mövqeyini daha da gücləndirir.

"Gəmidən-gəmiyə" (ship-to-ship) üsulu ilə həyata keçirilən ilk bunkerləmə əməliyyatı beynəlxalq standartlara uyğun olaraq uğurla reallaşdırılıb. Bu yanaşma gəmilərin limana daxil olmadan, operativ şəkildə yanacaqla təmin olunmasına imkan yaradır və xidmətin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır.

Uğurlu start şirkətin yüksək əməliyyat hazırlığını və peşəkar kompetensiyasını, eləcə də bütün proseslərin beynəlxalq tələblərə uyğun icra olunduğunu bir daha təsdiqləyir.

Gələcək mərhələdə "SOCAR Petroleum" bunkerləmə əməliyyatlarının genişləndirilməsini, yüksəkkeyfiyyətli DMA, IFO, VLSFO və MGO (ISO 8217) standartına uyğun dəniz yanacağının tətbiqini və təchizat infrastrukturunun inkişafını planlaşdırır.

Bu fəaliyyət istiqamətinin başlanması Xəzər regionunda dəniz infrastrukturunun inkişafına mühüm töhfə verməklə bərabər, Azərbaycanın beynəlxalq nəqliyyat və enerji dəhlizlərində rolunu gücləndirir, həmçinin ölkənin tranzit potensialının artmasına əlavə imkanlar yaradır.

# İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib



Aprelin 20-də İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində aqrar sahənin dayanıqlı inkişafı, o cümlədən mövcud vəziyyət və inkişaf perspektivləri, kənd təsərrüfatında istehsalın artırılması, məhsuldarlığın yüksəldilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar ticarətin və ixracın genişləndirilməsi, regionlarda məşğulluğun qorunması və digər carı məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələ üzrə kənd təsərrüfatı naziri Məcnun Məmmədovun geniş məruzəsi dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda aqrar sahənin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Cəbrayılda Şəfəq layihəsi çərçivəsində ilk günəş paneli quraşdırılıb



Şəfəq (Cəbrayıl) günəş layihəsinin investorları olan bp, SOCAR Green, Azərbaycan Biznesinin İnkişafı Fondu və MVM məmnuniyyətlə bildirirlər ki, Cəbrayıl rayonunda yerləşən layihə sahəsində günəş panellərinin quraşdırılmasına başlamaqla layihə növbəti mərhələyə keçir. İlk günəş panelinin bu ayın əvvəlində quraşdırılması ilə layihə üzrə tikinti işləri plana uyğun irəliləməkdə davam edir.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üçün maliyyə məsələləri üzrə vitse-prezidenti Nadir İmanov deyib: "Layihə üzrə aparılan tikinti işlərində bu mühüm mərhələnin başlanmasından çox məmnunuq. Tərəfdaşlarımızla birlikdə əsas diqqətimizi layihənin təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə yönəltməklə tikinti işlərini əminliklə irəli aparırıq. İnanırıq ki, bu mühüm layihə bərpa olunan elektrik enerjisinin istehsalı sahəsini və regiondakı əməliyyatlarımızın karbonsuzlaşdırılmasını dəstəkləməklə Azərbaycanın enerji keçidi səylərinə töhfə verəcək."

Layihə üzrə aparılan tikinti işlərində yerli resurslardan maksimum istifadə etmək əsas öhdəliklərdən biridir - işlərin pik dövründə layihədə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir. Hazırda layihəyə təxminən 350 nəfər yerli işçi cəlb olunub ki, bunlardan 123-ü işğaldan azad olunmuş ərazilərdə məskunlaşan sakinlərdir.

Tikinti işlərinin 2027-ci ildə başa çatması planlaşdırılır. Cəbrayılda inşa edilən bu 240 MVt gücündə stansiyanın ildə təxminən 500 QVt/saat bərpa olunan enerji istehsal edəcəyi gözlənilir.

# Türkiyə universitetlərinin nümayəndələri Sumqayıt Sənaye Parkında olublar



Azərbaycanda səfərdə olan Türkiyənin müxtəlif ali təhsil müəssisələrini təmsil edən nümayəndə heyəti ilə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Sənaye Parkında görüş keçirilib.

İZİA-dan bildirilib ki, qurumun İdarə Heyətinin sədri Seymur Adıgözəlov nümayəndə heyətinə agentliyin fəaliyyəti, ölkədə sənaye zonalarının inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlər, yerli və xarici investorlar üçün formalaşdırılmış əlverişli biznes və investisiya mühiti barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, sənaye zonalarında rezidentlər üçün tətbiq olunan vergi və gömrük güzəştləri, hazır infrastruktur təminatı, logistika imkanları və dövlət dəstəyi mexanizmləri ölkənin qeyri-neft sektorunun inkişafına, ixrac potensialının artırılmasına və yeni iş yerlərinin yaradılmasına mühüm töhfə verir.

Görüşdə, həmçinin ali təhsil müəssisələri ilə sənaye müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqat və innovasiya layihələrinin həyata keçirilməsi, kadr hazırlığı və bilik mübadiləsi istiqamətində imkanlar müzakirə edilib.

Daha sonra nümayəndə heyəti Sumqayıt Sənaye Parkının ərazisində fəaliyyət göstərən müəssisələrə baxış keçirib, istehsal prosesi ilə yerində tanış olub. Qonaqlara "Kartaş Kimya" MMC və "Azərfloat" QSC-nin müəssisələrində istehsalın təşkili, keyfiyyətə nəzarət mexanizmləri və ixrac imkanları barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti Sumqayıt Sənaye Parkında yaradılmış əlverişli biznes mühitini və müasir infrastruktur imkanlarını yüksək qiymətləndirib, bu kimi sənaye zonalarının regionda iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

# Qeyri-neft-qaz sektorunun büdcə gəlirləri proqnozu 9%-ə yaxın üstələyib

Dövlət büdcəsinin qeyri-neft-qaz sektoru üzrə daxilolmaları 2026-cı ilin I rübü üzrə dövlət büdcəsinin ümumi daxilolmalarının 57,7 faizini təşkil etməklə 5 milyard 533,7 milyon manat olub ki, bu da proqnozla müqayisədə 446,1 milyon manat və ya 8,8 faiz çoxdur.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Cari ilin yanvar-mart aylarında dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz sektoru üzrə daxilolmaların 69,5 faizini və ya 3847,1 milyon manatını vergi orqanlarının xətti ilə daxilolmalar, 25,5 faizini və ya 1410,1 milyon manatını gömrük orqanlarının xətti ilə daxilolmalar, 3,0 faizini və ya 163,5 milyon manatını dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar, 1,8 faizini və ya 99,2 milyon manatını sair daxilolmalar, 0,2 faizini və ya 13,8 milyon manatını dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar təşkil edir.



# Birinci rübdə Qarabağ və Şərqi Zəngəzura vəsait qoyuluşunun həcmi açıqlanıb

Bu ilin I rübündə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin (Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları) yenidən qurulması və bərpası məqsədilə sifarişçi təşkilatların müvafiq layihələr üzrə təqdim etdiyi kassa sifariş sənədləri əsasında illik nəzərdə tutulmuş vəsaitin 11%-i qədər və ya 386,2 milyon manat vəsait istifadə olunub.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.



# AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun 85 illik yubileyi qeyd olunub

***Aprelin 17-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Elm və Təhsil Nazirliyi Riyaziyyat İnstitutunun Sosial iqtisadi proseslərin qeyri-səlis modernləşdirilməsi laboratoriyasının müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun 85 illik yubileyinə həsr olunmuş "İqtisad elminin inkişafında müasir texnologiyaların istifadə problemləri" mövzusunda elmi sessiya keçirilib.***

Tədbir AMEA-nın İctimai Elmlər Bölməsi və Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin birgə təşkilatçılığı ilə baş tutub.

Əvvəlcə iştirakçılar AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Yubiley tədbirini giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli iqtisadçı-alim Qorxmaz İmanovun şərəfli və məhsuldar ömür yolu keçdiyini vurğulayıb. Qeyd edib ki, o, hələ Sovet hakimiyyəti dövründə yeni təfəkkürə malik iqtisadçı alim kimi formalaşaraq elmi ictimaiyyət tərəfindən tanınıb.

Akademik İsa Həbibbəyli Qorxmaz İmanovun iqtisadi proqnozlaşdırma modelləri kimi mühüm və mürəkkəb elmi istiqamətlər üzrə apardığı tədqiqatların onun 50 illik elmi fəaliyyətinin əsas xəttini təşkil etdiyini diqqətə çatdırıb.

Hazırda ölkəmizdə iqtisadi-riyazi proqnozlaşdırma modelləri sahəsində fundamental tədqiqatlar aparan alimlərin sayının məhdud olduğunu söyləyən AMEA rəhbəri bu gün cəmiyyətin inkişafında aparıcı mövqedə dayanan süni intellekt, rəqəmsal transformasiya və elmmetrik hesablamaların elmi bazasında məhz iqtisadi-riyazi proqnozlaşdırma modellərinin dayandığını vurğulayıb. Qeyd edib ki, bu modellərin formalaşması və rəqəmsal cəmiyyətin əsasını təşkil edən qərar qəbuletmə mexanizmlərinə çevrilməsi uzun və mürəkkəb elmi inkişaf yolunun nəticəsidir.

Akademik İsa Həbibbəyli Qorxmaz İmanovun iqtisadi qeyri-müəyyənlik problemləri və qeyri-səlis modellər anlayışlarını Azərbaycan elmi mühitinə gətirən alimlərdən olduğunu qeyd edib. Onun sözlərinə görə, bu, dünya elminə qeyri-səlis məntiq nəzəriyyəsini bəxş etmiş görkəmli Azərbaycan alimi Lütfi Zadənin ideyalarının iqtisadiyyat sahəsində tətbiqi əsasında formalaşmış yeni elmi istiqamətlərin yaranmasına təkan verib.

AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun Azərbaycan iqtisadiyyatının riyazi proqnozlaşdırılması sahəsində elmi məktəb yaratmış görkəmli ziyalılardan biri olduğunu deyən akademik İsa Həbibbəyli bildirib ki, alimin son 50 il ərzində apardığı elmi tədqiqatların böyük bir hissəsi Rusiya, Almaniya, ABŞ və digər ölkələrdə nüfuzlu elmi nəşrlərdə dərc olunub. O, Qorxmaz İmanovun dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının, o cümlədən Avropa İqtisadçılar Akademiyasının fəxri üzvü, İspaniya İqtisadiyyat və Maliyyə Elmləri Kral Akademiyasının xarici üzvü, eləcə də Ali Avropa Doktorlar Şurasının fəxri üzvü olduğunu diqqətə çatdırıb.

Alimin elmi fəaliyyətinin ETN İqtisadiyyat İnstitutu və İdarəetmə Sistemləri İnstitutu (Riyaziyyat İnstitutu) ilə sıx bağlı olduğunu söyləyən AMEA prezidenti onun rəhbərlik etdiyi laboratoriyanın bu sahənin inkişafında və yüksəkixtisaslı elmi kadrların hazırlanmasında mühüm rola malik olduğunu vurğulayıb.









Akademik İsa Həbibbəyli yubilyarın elmi-təşkilatçılıq fəaliyyətindən də bəhs edərək alimin beynəlxalq və respublika səviyyəli elmi tədbirlərdə fəal iştirak etdiyini, dəyərli məruzələrlə çıxış etdiyini, eyni zamanda rəhbərliyi ilə 31 fəlsəfə doktoru və 3 elmlər doktorunun yetişdirildiyini bildirib.

*"AMEA Qorxmaz İmanovun timsalında novator, yenilikçi, dünya iqtisad elminin müsbət təcrübələrini Azərbaycana gətirən və tətbiq edən, müstəqil dövlətimizin elmi və iqtisadi inkişafına sanballı əsərləri ilə xidmət edən alim şəxsiyyətini yüksək qiymətləndirir"*, - deyə akademik İsa Həbibbəyli qeyd edib.

O, AMEA-nın müxbir üzvü Qorxmaz İmanova Azərbaycan akademik elminin inkişafına verdiyi töhfələrə görə təşəkkürünü bildirib, yeni elmi yaradıcılıq uğurları arzulayıb.

Sonra Azərbaycan İqtisadçılar İttifaqının sədri, millət vəkili, akademik Ziyad Səmədzadə **"İqtisad elminin görkəmli nümayəndəsi, AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun elmi fəaliyyəti haqqında"** adlı məruzə ilə çıxış edib. O, alimin həyat və fəaliyyətindən, iqtisad elminin inkişafında, iqtisadçı elmi kadrların hazırlanmasında müstəsna xidmətlərindən danışıb. Bildirib ki, iqtisadiyyatın riyazi və instrumental üsulları sahəsində dünya elminə mühüm töhfələr vermiş Qorxmaz İmanov ömrünü iqtisadiyyat elminin tədqiqinə həsr edib, bu sahədə böyük məktəb yaradıb.

Akademik Ziyad Səmədzadə yubilyarın 1968-ci ildə Moskva şəhərində SSRİ EA Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutunda **"Yüklərin daşınması prosesinin optimallaşdırılması məsələləri EHM və iqtisadi-riyazi üsulların tətbiqi"** mövzusunda namizədlik, 1975-ci ildə isə **"Milli iqtisadiyyatının optimal planlaşdırılmasının inteqral modellər sistemi"** mövzusunda doktorluq dissertasiyalarını müdafiə etdiyini diqqətə çatdırıb.

Vurğulayıb ki, o, 1983-cü ildə professor elmi adına layiq görülüb, 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilib.

Qorxmaz İmanovla tanışlığının 1960-cı illərin sonlarına təsadüf etdiyini söyləyən məruzəçi onun respublikada iqtisadi-riyazi üsullar sahəsində çalışan ilk alimlərdən biri olduğunu bildirib.

O, yubilyarın Azərbaycanın sosial-iqtisadi, eləcə də sosial sistemlərin keyfiyyətinin qiymətləndirilməsinin qeyri-səlis modelləri, iqtisadi qeyri-müəyyənlik problemləri, dayanıqlı inkişafın milli strategiyasının qiymətləndirilməsi modelləri və sosial iqtisadi sistemlərin makro indekslərinin qeyri-səlis məntiq nəzəriyyəsi əsasında qiymətləndirilməsi ilə də bağlı elmi nailiyyətlərindən bəhs edib. Bildirib ki, alimin tədqiqat işlərində iqtisadi informasiyalarda və proseslərdə baş verə biləcək qeyri-müəyyənlik problemlərinin araşdırılması və bu problemlərin sosial-iqtisadi sistemin müxtəlif səviyyələrində həlli üçün təklif edilmiş fazi modellərin respublikamızın inkişaf proqramlarında istifadəsi böyük əhəmiyyət kəsb edir.









*(davamı 6-cı səhifədə)*

# Azərbaycan auditi - 2025

Azərbaycan Respublikasının Auditorlar Palatası ölkə iqtisadiyyatının vacib infrastruktur sahələrindən biri olan auditin inkişafı və beynəlxalq standartlara uyğun qurulması istiqamətində fəaliyyətini 2025-ci il ərzində də ardıcıl şəkildə davam etdirmişdir. Palata öz fəaliyyətini "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamə, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası (2021-2030-cu illər)", Palata Şurasının 2024-cü il 29 dekabr tarixli 372/1 nömrəli qərarı ilə təsdiq edilmiş Palatanın və onun Şurasının 2025-ci il üzrə iş planları və digər normativ sənədlər çərçivəsində qurmuşdur.



**Səbuhi Gülməmmədov, Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru**



**Şəfiqə Əsgərova, Azərbaycan Respublikası Auditorlar Palatasının daxili auditoru**

**Auditorlar Palatasının fəaliyyətinin əsas istiqamətlər**

2025-ci il ərzində Auditorlar Palatası tərəfindən auditor xidmətlərinin tənzimlənməsi, auditorların peşəkarlıq səviyyəsinin artırılması, etik normalara riayət





olunmasının təşviqi, həmçinin audit sahəsində normativ-metodoloji bazanın təkmilləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyət aparılmışdır. Bununla yanaşı, dövlət orqanları, ali təhsil müəssisələri və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılmışdır.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi, həmçinin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Auditorlar Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə 2025-ci ilin 13 mart tarixində "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Maliyyə nəzarəti – dövlətin və özəl sektorun konstitusion hüquqlarının qorunmasının təminatçısı kimi" mövzusunda konfrans keçirilmişdir. Sözügedən tədbir maliyyə nəzarətinin hüquqi dövlət quruculuğunda, dövlət və özəl sektor münasibətlərində şəffaflığın təmin edilməsində, eləcə də konstitusion hüquqların qorunmasında mühüm rol oynadığını bir daha nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2025-ci il 23 may tarixində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Konfransda ölkəmizin aidiyyəti qurumlarının nümayəndələri ilə yanaşı, xarici ölkələrin (İsrail, Pakistan, Latviya) audit və mühasibatlıq qurumlarının rəhbərləri və ƏL/TMM üzrə mütəxəssisləri iştirak etmiş, beynəlxalq təcrübə mübadiləsi aparılmış, risklərin idarə olunması, nəzarət mexanizmlərinin gücləndirilməsi və institusional əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Ötən il Palatanın iş planında isə auditin təşkili və tənzimlənməsi, rəqəmsallaşma və innovasiyaların tətbiqi, beynəlxalq audit standartlarının tətbiqi, keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı, kadr hazırlığı, beynəlxalq əlaqələr, audit sistemində icra intizamı və daxili nəzarət, nəşrlər, konfranslar, "dəyirmi masa"lar, ustad dərsləri və seminarlar, informasiya təminatı, palatadaxili tənzimləmə, daxili audit istiqamətlər üzrə görülməli olan işlər əksini tapmış və bu tədbirlər 160-dan artıq olmuşdur.

**Auditorlar Palatasının Dövlət Proqramlarında iştirakı**

2025-ci il ərzində Auditorlar Palatası bir sıra mühüm əhəmiyyət kəsb edən Dövlət Proqramlarının icrasında iştirak etmişdir. O cümlədən, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 04 aprel tarixli 3199 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı 15 bənd üzrə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli sərəncamının 2.2-ci bəndinin tələbinə uyğun olaraq həmin sərəncamla təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan 7 bənd üzrə xeyli işlər görülmüşdür.

**Auditin təşkili və tənzimlənməsi**

"Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə müvafiq olaraq Auditorlar Palatasının əsas vəzifəsi olan mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasını təmin etmək məqsədilə respublikada auditor xidmətinin təşkili və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün müvafiq tədbirləri həyata keçirməkdə davam etmişdir.

**Auditin keyfiyyətinə nəzarət və kadr hazırlığı**

Ötən il ərzində Auditorlar Palatasının müfəttişlər qrupu tərəfindən 47 auditor təşkilatının və 14 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinə kənar nəzarət keçirilmiş və nəticəsi üzrə hesabatlar Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə təqdim edilmişdir. Aparılan yoxlamaların nəticələrinə Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitədə, bəziləri isə Palatanın Şurasında baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Azərbaycanda beynəlxalq tələblərə uyğun fəaliyyət göstərməyə qadir olan auditor kadrlarının hazırlanması, onların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məsələləri Auditorlar Palatasının fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir. Auditorlar Palatasının İmtahan Komissiyası və Kadr hazırlığı idarəsi tərəfindən 2025-ci ildə auditor adı almaq üçün ənənəvi qaydada 3 imtahan keçirilmişdir. Bundan başqa ötən ildə iki ixtisasartırma kursu və müxtəlif mövzularda təlimlər təşkil edilmişdir.

Auditorlar Palatası tərəfindən 2025-ci il ərzində 7 "dəyirmi masa", 2 ustad dərsi, 13 seminar və 19 ictimai-siyasi tədbir keçirilmişdir.

**Beynəlxalq əməkdaşlıq**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə Auditorlar Palatası bir sıra xarici qurumlarla, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) ilə əməkdaşlıq edir və hər iki qurumun tamhüquqlu üzvüdür. Auditorlar Palatası fəaliyyəti dövründə üzv olduğu və əməkdaşlıq etdiyi qurumlarla daim əlaqədə olmaqla ölkəmizdə auditor xidmətinin təşkili, tənzimlənməsi, inkişafı və onun keyfiyyətinin yüksəldilməsi istiqamətində sıx əməkdaşlıq edir, onlarla dostluq, etimad və qarşılıqlı anlaşma münasibətləri yaradılmışdır. Beynəlxalq əlaqələr çərçivəsində qarşılıqlı olaraq təşkil edilən tədbirlərdə nümayəndə heyətləri mütəmadi olaraq iştirak edirlər. Ötən ildə Auditorlar Palatasının rəhbərliyi, əməkdaşları və üzvləri 10-dan artıq beynəlxalq tədbirdə iştirak etmişdir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Auditorlar Palatası, Türkiyənin İctimai Nəzarət, Mühasibat və Audit Standartları Təşkilatı (KGK) və Qazaxıstan Respublikası Auditorlar Palatasının nümayəndə heyətləri arasında 2025-ci il noyabrın 14-də işgüzar görüş keçirilmişdir. Görüşün məqsədi Auditorlar Palatası və KGK arasında audit və mühasibatlıq sahəsində institusional tərəfdaşlıq mexanizmlərinin yaradılması, iki qardaş ölkənin tənzimləyici qurumları arasında auditin keyfiyyətinə nəzarət, ƏL/TM-ə və haqsız rəqabətə qarşı mübarizə, auditorlarının sertifikasiyası sahələrində birgə əməkdaşlıq perspektivlərinin, habelə türkdilli dövlətlərin audit və mühasibatlıq qurumlarının vahid birliyinin yaradılması məsələlərinin müzakirəsindən ibarət olmuşdur.

**Auditorlar Palatası Şurası: 2025-ci ildə yeniliklər, şəffaflıq və keyfiyyət prioritet olub**

2025-ci il ərzində Auditorlar Palatası Şurasının fəaliyyəti audit sahəsində müasir çağırışlara uyğunlaşma, beynəlxalq standartların tətbiqi və peşə etikası prinsiplərinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlarla yadda qalmışdır. İl boyu keçirilən çoxsaylı iclaslarda qəbul edilən qərarlar ölkədə audit fəaliyyətinin daha şəffaf, etibarlı və keyfiyyətli şəkildə təşkilinə xidmət etmişdir.

Şura iclaslarında əsas diqqət auditor fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə yönəldilmişdir. Bu çərçivədə beynəlxalq audit standartlarına uyğun yeni təlimatlar hazırlanmış, mövcud qaydalar yenidən işlənmiş və peşəkar mühasiblərin etik davranışını müəyyən edən mexanizmlər gücləndirilmişdir. Xüsusilə Beynəlxalq Etika Məcəlləsinin tətbiqi və audit standartlarına dair şərhlərin hazırlanması bu sahədə mühüm addımlardan biri olmuşdur.

Eyni zamanda auditin keyfiyyətinə nəzarətin artırılması Şuranın əsas prioritetlərindən biri kimi çıxış etmişdir. Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyəti üzrə mütəmadi təhlillər aparılmış, auditlərin keyfiyyətinə kənar nəzarət mexanizmləri gücləndirilmiş, mövcud risklərin müəyyən edilməsi və aradan qaldırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. Bu yanaşma audit xidmətlərinin etibarlılığının artırılmasına və ictimai etimadın möhkəmlənməsinə xidmət etmişdir.

2025-ci ildə auditorlar arasında etik davranışın təmin olunması və peşə standartlarına riayət olunması məsələləri də xüsusi diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə monitorinq sistemləri yaradılmış, müvafiq sorğular vasitəsilə mövcud vəziyyət qiymətləndirilmiş və gələcək fəaliyyət üçün əsaslı qərarlar qəbul edilmişdir. Təsadüfi deyil ki, 2026-cı ilin "Auditorların peşə etikası ili" elan edilməsi bu sahədə aparılan işlərin məntiqi davamı kimi qiymətləndirilir.

Audit bazarında sağlam rəqabət mühitinin qorunması məqsədilə haqsız rəqabət və dempinq halları ilə mübarizə də gücləndirilmişdir. Bu çərçivədə anonim müraciət mexanizmlərinin yaradılması, beynəlxalq təcrübənin öyrənilməsi və qeyri-qanuni fəaliyyət hallarının aşkarlanması üzrə monitorinqlərin aparılması diqqət çəkən məqamlardandır.

Bununla yanaşı, Auditorlar Palatasının institusional inkişafı istiqamətində də mühüm addımlar atılmışdır. Palatanın illik fəaliyyət və maliyyə hesabatları təsdiq edilmiş, struktur bölmələrin fəaliyyəti qiymətləndirilmiş, komitə və şuraların iş planları müəyyənləşdirilmişdir. Auditorların peşəkar inkişafı məqsədilə ixtisasartırma proqramları yenilənmiş, imtahan mexanizmləri təkmilləşdirilmişdir.

İl ərzində beynəlxalq əməkdaşlıq və elmi fəaliyyət istiqamətində də ardıcıl addımlar atılmışdır. Müxtəlif konfranslar, seminarlar və "dəyirmi masa"lar təşkil olunmuş, Auditorlar Palatasının üzv olduğu IFAC və EFAA kimi beynəlxalq nüfuzlu təşkilatların tələblərinin tətbiqi üzrə məqsədyönlü işlər həyata keçirilmişdir. Bu fəaliyyətlər ölkədə audit sisteminin beynəlxalq standartlara uyğunlaşmasına və beynəlxalq praktikaya inteqrasiyasına mühüm töhfə vermişdir.

Eyni zamanda 2026-cı il üzrə fəaliyyət istiqamətləri də əvvəlcədən müəyyən edilmiş, müvafiq iş planları və monitorinq mexanizmləri təsdiqlənmişdir. Bu, audit sahəsində davamlı inkişafın və sistemli yanaşmanın təmin olunmasına zəmin yaradır.

Ümumilikdə, 2025-ci il Auditorlar Palatası Şurası üçün audit fəaliyyətində keyfiyyətin yüksəldilməsi, şəffaflığın artırılması və peşə etikası prinsiplərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətli mərhələ kimi dəyərləndirilə bilər.

**İnformasiya-təbliğat və nəşr fəaliyyəti**

Fəaliyyət göstərdiyi ilk illərdən etibarən Auditorlar Palatasının çoxşaxəli fəaliyyətində mühüm yer tutan təbliğat və nəşr işləri də həm sahibkarlıq fəaliyyətinin bir növü olan auditor xidmətinin təbliğinə, dövlətin maliyyə-iqtisadi fəaliyyətinin həyata keçirilməsi, iqtisadi demokratiyanın genişləndirilməsi və ölkədə maliyyə şəffaflığının bərqərar edilməsi vəzifələrinin həllində auditin yeri və rolu barədə dolğun təsəvvürlərin formalaşmasına, cəmiyyət tərəfindən auditin idarəetmə prosesində nəzarət-analitik infrastruktur kimi qəbul edilməsinə yardımçı olmaq, həm də auditor kadrlarının hazırlanması və onların peşə-ixtisas səviyyəsinin, auditor peşəsinin nüfuzunun yüksəldilməsinə kömək etmək məqsədi güdür. Bu məqsədlə Auditorlar Palatası 2025-cü il ərzində aşağıdakı kitabları nəşr etdirmiş və Palatanın üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara istifadə üçün təqdim etmişdir:

***1. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi;***

***2. Maliyyə Nəzarətinin (Auditin) Formalaşması və İnkişafı – tarixi faktlar;***

***3. Hesabatlıq və audit: Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə.***

Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin KİV-lər vasitəsilə müntəzəm məlumatlandırılması ilə əlaqədar Palatanın rəhbərliyi və struktur bölmələri tərəfindən 2025-ci il ərzində çoxsaylı işlər həyata keçirilmişdir. Auditorlar Palatasının rəhbərliyinin və üzvlərinin 1 müsahibəsinin, 13 məqaləsinin və 10-dan artıq tədbir barədə məlumatların KİV-də dərc etdirilməsi təmin edilmişdir.

**Müasir çağırışlar və innovativ audit**

Azərbaycanda auditin otuz illik inkişaf təcrübəsi audit sistemində bəzi məsələlərin də təxirə salınmadan həllini zəruri edir. Bazar infrastrukturu olmaq etibarilə milli iqtisadiyyatın, ilk növbədə də sahibkarlığın inkişafına töhfəsini daha da artırmaq üçün auditor xidmətinin daha geniş anlamda qəbul edilməsi, həmin anlayışa sifarişçilərə iqtisadi strategiyaya dair məsləhət və tövsiyələr verməkdən tutmuş optimallaşdırma məsələlərinə qədər əhatəli bir xidmət sahəsinin daxil edilməsi tələb olunur. Beynəlxalq audit praktikasında istifadə olunan fəaliyyət növlərinin və metodlarının geniş tətbiqi ölkəmizdə auditin təşkilinin əsas istiqamətləri kimi mühüm əhəmiyyət kəsb edir. Müasir şəraitdə Azərbaycanın innovativ iqtisadiyyatında auditin inkişaf xüsusiyyətlərinin öyrənilməsi, keyfiyyətli uçot və auditin formalaşdırılması problemlərinin, onların həlli yollarının aşkara çıxarılması böyük rol oynayır. Bunu nəzərə alaraq, Auditorlar Palatasında "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya" işlənib hazırlanmış və həmin Konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi bu gün də davam etdirilir. İqtisadiyyatımızın davamlı və səmərəli inkişafı, rəqabətqabiliyyətliliyin yüksədilməsi ilə bərabər sosial və iqtisadi innovasiyanın genişləndirilməsi, qabaqcıl informasiya və kosmik texnologiyaların tətbiqi ölkəmizi nəinki regional liderə çevirmiş, həm də getdikcə dünyada şiddətlənən qlobal risklər və iqtisadi-maliyyə böhranlarına rəğmən iqtisadiyyatımızın davamlı inkişafına zəmin yaratmışdır. Təbii ki, bu uğurun qazanılmasında Azərbaycan Prezidentinin böyük ustalıqla və uzaqgörənliklə reallaşdırdığı fəal çoxvektorlu, bərabər partnyorluq prinsiplərinə əsaslanan xarici və daxili siyasəti müstəsna əhəmiyyətə malikdir. Məhz bu baxımdan müasir şəraitdə digər sahələrdə olduğu kimi, auditdə və hesabatlılıqda ən cəlbedici müzakirə obyektlərindən biri də qabaqcıl texnologiyaların və süni intellektin üstünlüklərindən istifadə, düşünülməmiş qəfil tətbiqinin isə fəsadlarının neytrallaşdırılması təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatının azaldılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsi Azərbaycanda dayanıqlı və inklüziv iqtisadiyyatın durmadan inkişaf etməsi üçün zəmin yaradır. Azərbaycan auditinin əldə etdiyi uğurlar, onun möhtərəm Prezidentimizin sözləri ilə desək, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət etməsi ölkəmizdə auditin inkişafına güclü siyasi dəstəyin mövcudluğu ilə əlaqədardır ki, buna görə də, Azərbaycan auditorları ilk növbədə ölkə Prezidentinə minnətdardırlar. Bununla belə, Azərbaycanda müstəqil auditin qarşısında duran problemlər yeni dövrün çağırışları nəzərə alınmaqla müasir və dünya təcrübəsinə əsaslanan yanaşmanın tətbiqini ön plana çəkir. Auditorlar Palatası tərəfindən hazırlanmış 2021-2030-cu illəri əhatə edən auditin üçüncü inkişaf konsepsiyası Azərbaycanda auditor fəaliyyətinin müasir vəziyyəti və onun inkişafına mane olan əsas problemlər, auditor xidmətinin keyfiyyət problemləri, auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə, auditor xidmətlərinə tələbatın və ictimai etimadın yüksəldilməsini, eləcə də, qabaqcıl xarici təcrübənin tətbiqi və beynəlxalq peşəkar qurumların fəaliyyətində milli auditin iştirakının genişləndirilməsini, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətlərini (konseptual əsasları), auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsini, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf istiqamətlərini, audi-

tor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılmasını və 2030-cu ilə qədər Azərbaycanda auditor fəaliyyətinin inkişafının konseptual istiqamətlərini özündə əks etdirir. Bu Konsepsiyanın məqsədi yalnız şəffaflıq, hesabatlılıq və audit sahəsində üzləşdiyimiz ciddi və bəzən də gözlənilmədən meydana çıxan çətinliklər və problemlərin həllinə reaksiya vermək yox, daha çox gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün konseptual yanaşmanı təmin etməkdir. Nəticə olaraq, Auditorlar Palatası ölkədə hesabatlılıq və şəffaflıq prinsiplərinin gücləndirilməsi, beynəlxalq audit standartlarının tətbiqi və yaşıl iqtisadiyyata keçid prosesində mühüm rol oynamaqda davam edir.

2025-ci il ərzində həyata keçirilmiş tədbirlər Palatanın beynəlxalq əməkdaşlığını genişləndirmək, auditor xidmətlərinin keyfiyyətini artırmaq və iqtisadiyyatın davamlı inkişafına töhfə vermək istiqamətində mühüm addımlar atdığını göstərir. Rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi kimi məqsədlər öz aktuallığı ilə yanaşı müasir iqtisadi siyasətdə bir yeni yanaşma olmaqla digər ölkələr üçün örnək kimi xüsusi dəyərləndirilməlidir.

**Rəqəmsallaşma və süni intellekt**

Qlobal iqtisadiyyatın sürətli rəqəmsallaşması və texnoloji transformasiya şəraitində audit fəaliyyətinin də yeni keyfiyyət mərhələsinə yüksəldilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, Auditorlar Palatasının qarşısında duran prioritet vəzifələrdən biri audit fəaliyyətinin rəqəmsal əsaslarda təşkili, süni intellekt və müasir məlumat analitikası alətlərinin tətbiqinin genişləndirilməsi, audit proseslərinin şəffaflığının və operativliyinin artırılması, həmçinin beynəlxalq peşəkar standartlara uyğun innovativ audit metodologiyalarının inkişaf etdirilməsidir. Bununla yanaşı, auditor peşəsinin yüksək etik prinsiplərə əsaslanan nüfuzunun qorunması, peşəkar kadr potensialının gücləndirilməsi və maliyyə hesabatlılığının etibarlılığının təmin olunması istiqamətində fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsi mühüm vəzifələrdəndir.



Ötən otuz ilin təcrübəsi göstərir ki, müstəqil audit institutu yalnız maliyyə nəzarəti mexanizmi deyil, həm də iqtisadi inkişafın dayanıqlılığını təmin edən mühüm institusional sütunlardan biridir. Azərbaycanın sürətlə dəyişən və rəqəmsallaşan iqtisadi mühitində audit fəaliyyətinin rolu daha da aktuallaşır, şəffaflığın, hesabatlılığın və maliyyə intizamının möhkəmləndirilməsi baxımından yeni vəzifələr müəyyən edir. Bu gün Auditorlar Palatası qarşıdakı illərə məhz bu məsuliyyət və missiya ilə baxır.

Beynəlxalq standartların daha geniş şəkildə inteqrasiyası və rəqəmsallaşma proseslərinin sürətlənməsi, eləcə də süni intellekt texnologiyalarının tətbiqinin genişlənməsi şəraitində auditor kadrlarının hazırlanması müasir audit sisteminin əsas prioritetləri kimi müəyyən olunur.

Şübhə yoxdur ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ardıcıl siyasəti ilə inkişaf etdirilən müstəqil audit sistemi bundan sonra da ölkəmizdə iqtisadi şəffaflığın möhkəmləndirilməsinə, maliyyə intizamının gücləndirilməsinə və ictimai etimadın daha da artırılmasına öz mühüm töhfəsini verəcəkdir.

# Əmək və sosial müdafiə sahəsində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



Prezident cənab İlham Əliyevin tapşırıqları əsasında ölkəmizdə sosial təminat sistemi ildən-ilə gücləndirilir və cari ilin əvvəlindən bu istiqamətdə növbəti addım atılıb: pensiyaların 9,3 faiz indeksləşdirilərək artırılması təmin edilib. Təkcə ilk rüb ərzində pensiya təminatına ayrılan vəsait ötən ilin müvafiq dövrünə nisbətən 200 milyon manat artaraq 2 mlrd. 53 mln. manat olub. Eyni zamanda digər sosial ödənişlərə yönəldilən vəsaitlər artıb.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev sosial müdafiə sahəsində işlərin davam etdirilməsi yanaşı, aktiv məşğulluq proqramlarının ildən-ilə genişləndirildiyini vurğulayıb. O, işğaldan azad olunan ərazilərimizə köçürülən sakinlərin məşğulluğunun təminatının Nazirlik üçün başlıca fəaliyyət istiqaməti olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, işəgötürənlərlə sıx əməkdaşlıq şəraitində bu sahədə işədüzəltmə, özünməşğulluq proqramı, peşə hazırlığı proqramı, əmək yarmarkaları, birgə maliyyələşmə proqramı və s. proqramlar icra olunur və getdikcə genişləndirilir. Böyük Qayıdış proqramı üzrə həmin ərazilərə köçürülən sakinlərdən əmək qabiliyyətli olanların artıq 9470 nəfərinin məşğulluğu təmin edilib, həmçinin 807 nəfər şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesləri qurulub. Köçürülmüş sakinlərdən 432 şəxs isə peşə hazırlığı kurslarına cəlb edilib.

Əmək bazarında işçi qüvvəsinə tələb və təklifin uyğunlaşdırılması və rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün son bir ildə 300, son illərdə 1600-dən çox peşə və kvalifikasiya standartının hazırlandığı bildirilib. Bu il standartın sayının 1800-ə çatdırılmasının nəzərdə tutulduğu qeyd edilib.

Əmək münasibətləri sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı bu il aparılmış islahatların işçi hüquqlarının daha güclü müdafiəsini təmin edən mexanizmlərin yaradılması, əmək münasibətlərinin çevik və sosial yönümlü prinsiplər əsasında tənzimlənməsi, eləcə də müasir dövrün tələblərinə uyğun yeni anlayışların hüquqi bazaya daxil edilməsi məqsədi daşıdığı vurğulanıb.

Əllliyi olan şəxslərin hüquqlarının qorunması, onların inklüziv cəmiyyətə inteqrasiyasının artırılması istiqamətində həyata keçirilən tədbirlər müzakirə olunub.

Ötən dövrdə pensiya təyinatlarının proaktiv qaydada aparılması işlərindən bəhs olunub, qarşıdakı dövrdə də Nazirlik tərəfindən sosial xidmətlərin elektronlaşırılması işlərinin davam etdiriləcəyi, proaktiv qaydada təyin edilən sosial ödəniş növlərinin əhatə dairəsinin genişləndiriləcəyi bildirilib. İclasda habelə beynəlxalq əlaqələr, daxili nəzarət və audit sahələrində görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# Abşeron Logistika Mərkəzi 80 000 m² yeni anbar kompleksini istifadəyə verdi

Abşeron Logistika Mərkəzi müasir standartlara cavab verən yeni anbar kompleksini istifadəyə verib. Ümumi sahəsi 80 000 m² olan kompleks tam infrastrukturlu olmaqla geniş logistika imkanlarına malikdir.



Kompleksin Abşeron Ticarət Mərkəzinə və digər böyük ticarət obyektlərinə yaxın yerləşməsi burada saxlanılan məhsulların qısa zamanda satışa çıxarılmasını asanlaşdırır. Ərazidə istehsal və emal sahələrinin mövcudluğu sahibkarlar üçün əlavə üstünlük yaradır. Belə ki, məhsulun istehsalı, saxlanması və satışa yönləndirilməsi vahid məkanda təşkil olunur ki, bu da logistika xərclərini və vaxt itkisini minimuma endirir.

Yeni anbar kompleksi tam kommunal infrastrukturla təmin olunub və müasir yanğın təhlükəsizlik sistemi ilə təchiz edilib. Kompleksin ərazisi 7/24 rejimində fəaliyyət göstərən təhlükəsizlik və videomüşahidə sistemləri ilə nəzarətdə saxlanılır, giriş-çıxış prosesləri tam nəzarət altında həyata keçirilir və anbar sahələrinin fasiləsiz mühafizəsi təmin olunur. Kompleks qida, qeyri-qida və tikinti materiallarının saxlanması üçün əlverişli şərait yaradır. Anbar sahələrində yüklərin barkodlaşdırılması və izlənilməsi, eləcə də WMS – anbar idarəetmə sistemi vasitəsilə əməliyyatların optimallaşdırılması təmin olunur. Bundan əlavə, yararsız məhsulların utilizasiyası və yüklərin sığortalanması xidmətləri təqdim edilir.

Yeni anbar kompleksi şirkətlərə logistika əməliyyatlarını daha səmərəli təşkil etmək və yüklərin təhlükəsizliyini təmin etmək üçün əlverişli imkanlar yaradır. Anbar sahələri əlavə investisiya tələb olunmadan sərfəli şərtlərlə icarəyə verilir.

# Elektron satınalmalar nəticəsində dövlət büdcəsinə qənaətin həcmi açıqlanıb

Bu ilin yanvar-fevral aylarında elektron satınalmalar nəticəsində dövlət büdcəsinə qənaət edilmiş məbləğin ehtimal olunan qiymətdə xüsusi çəkisi 19,6% təşkil edib.

Trend bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə istinadən xəbər verir.

Məlumata görə, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici üzrə 8,2 faiz bəndi artım müşahidə olunub.

Bildirilib ki, dövr ərzində elektron satınalmalar nəticəsində dövlət büdcəsinə 99,5 milyon manat qənatə edilib. Ötən ilin eyni dövründə bu göstərici 45,8 milyon manata bərabər idi. Beləliklə, elektron satınalmalar nəticəsində dövlət büdcəsinə qənaət edilmiş məbləğ illik ötən ilin eyni dövrü ilə müqayisədə 53,7 milyon manat və ya 2,2 dəfə artıb.

*"Bu, elektron satınalma sisteminin effektivliyini, dövlət vəsaitlərindən səmərəli istifadəni və ümumi maliyyə idarəçiliyinin yüksəlməsini nümayiş etdirir"*, - məlumatda qeyd edilib.

# Azərbaycanın pambıq iplik ixracı 2 dəfədən çox artıb

2026-cı ilin yanvar-mart aylarında ölkədən 4 691,32 ton pambıq iplik ixrac edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çoxdur.



Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, ixrac edilən pambıq ipliyin dəyəri 2 dəfə artaraq 10 milyon 269,08 min dollar olub. Xatırladaq ki, 2025-ci ilin yanvar-mart aylarında Azərbaycandan 5 milyon 24,4 min dollar dəyərində yəni, 2 009,91 ton pambıq iplik ixrac edilib.

# Birinci rübdə Azərbaycanda duz istehsalı 33 faiz artıb



2026-cı ilin yanvar-mart aylarında Azərbaycanda 26 min 837 ton duz istehsal olunub. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 33 faiz çoxdur. AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Qeyd edək ki, 2025-ci ilin yanvar-mart aylarında ölkədə duz istehsalı 20 min 184,2 ton təşkil edib.

# İşğaldan azad edilmiş ərazilərdə məşğulluğun təminatı üçün işəgötürənlərlə birgə ardıcıl işlər aparılır

Böyük Qayıdış proqramına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işğaldan azad olunmuş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin olması istiqamətində işəgötürənlərlə birgə ardıcıl işlər aparır.



Bu barədə Nazirlikdə işəgötürənlərlə keçirilən növbəti görüşdə bildirilib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev doğma yurdlarına qayıdan sakinlərin həm işlə təminatı, həm yeni peşələrə yiyələnməsi, həm də özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə bizneslərinin qurulması sahəsində aparılan işləri diqqətə çatdırıb.

Görüşdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Təmiz Şəhər" ASC, "Azərişıq" ASC, "Azərenerji" ASC, SOCAR, Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti və Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin nümayəndələri iştirak edib.

İşğaldan azad olunmuş ərazilərdə işçi və işəgötürənlər üçün tətbiq olunan güzəşt və imtiyazlar da diqqətə çatdırılıb. Həmin bölgələrdə məskunlaşan və məskunlaşması nəzərdə tutulan vətəndaşların məşğulluğunun təmin olunması sahəsində görüləcək birgə işlər müzakirə edilib.

*(əvvəli 3-cü səhifədə)*

Akademik Ziyad Səmədzadə Qorxmaz İmanovun 1984-cü ildə elm sahəsində Azərbaycan SSR Dövlət mükafatına layiq görüldüyünü diqqətə çatdırıb. Vurğulayıb ki, görkəmli alim dünyanın 40-dan çox ölkəsində iqtisadiyyatda riyazi üsulların tətbiqi ilə bağlı çıxışlar edərək ölkəmizi layiqincə təmsil edib.

O, iqtisad və texniki elmlərin qarşılıqlı əlaqəsini yaradan Qorxmaz İmanovun çoxşaxəli fəaliyyətinin gənc nəsil üçün örnək olduğunu deyib. Akademik Ziyad Səmədzadə yubilyarın zəngin təcrübəsi və elmi irsinin respublika iqtisadçıları üçün əvəzsiz məktəb olduğunu bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyev Ulu Öndər Heydər Əliyevin uğurla həyata keçirdiyi elm siyasətinin bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini vurğulayaraq dövlət başçısının daim elmə, təhsilə, mədəniyyətimizə xüsusi diqqət və qayğı ilə yanaşdığını bildirib. AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun keçdiyi şərəfli həyat yolundan, Azərbaycanın iqtisadiyyat elminin inkişafındakı dəyərli xidmətlərindən söz açıb. Qeyd edib ki, Qorxmaz İmanov yalnız alim kimi deyil, həm də yüksək mənəvi keyfiyyətlərə malik alicənab bir insan, dəyərli bir ağsaqqal kimi də xalq arasında böyük hörmət qazanmışdır. Onun müdrikliyi, insanlara qayğıkeş münasibəti, milli-mənəvi dəyərlərə bağlılığı, gənc nəslə örnək olan həyat prinsipləri cəmiyyətimiz üçün əsl nümunədir. Daha sonra Eldar Quliyev Azərbaycanda elmin inkişafına verdiyi töhfələrə, yüksəkixtisaslı elmi kadrların hazırlanmasında, gənc alimlərin yetişdirilməsində, onlara milli-mənəvi dəyərlərin aşılanmasında göstərdiyi xidmətlərə görə və 85 illik yubileyi münasibətilə Azərbaycan Ağsaqqallar Şurası tərəfindən AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun "Fəxri Ağsaqqal" döş nişanı ilə təltif edildiyini vurğulayaraq, döş nişanını və hədiyyələri görkəmli alimə təqdim edib. Onu 85 illik yubileyi münasibətilə ürəkdən təbrik edərək uzun ömür, möhkəm cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıb.















Daha sonra AMEA-nın müxbir üzvü Qorxmaz İmanov "Həyat keyfiyyətinin idarə olunmasının süni intellekt texnologiyaları" mövzusunda elmi məruzəsini təqdim edib. O, son illərdə süni intellekt texnologiyalarının sosial-iqtisadi sistemlərin idarəolunmasında tətbiqi sahəsində apardığı tədqiqatlardan və alınan nəticələrdən bəhs edib.

Tədbirdə akademik Əli Abbasov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin biznesin idarə olunması BBA proqramlarının rəhbəri, AMEA-nın müxbir üzvü Rafiq Əliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov, AR Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, professor Vüsal Qasımlı və UNEC-in nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Yadulla Həsənli alimi yubileyi münasibətilə təbrik edib, onun çoxşaxəli fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən danışıblar. Bildirilib ki, Qorxmaz İmanov respublikamızın elmi ictimaiyyəti arasında tanınmış iqtisadçı alim, nüfuzlu və bacarıqlı təşkilatçı, elmi-nəzəri və təcrübi əhəmiyyətə malik ideyaların daşıyıcısı kimi böyük hörmətə malikdir.

# Türk dövlətlərinin vahid rəqəmsal təhsil mühiti yaradılmalıdır

***Təhsil inkişafın əsas mərkəzidir. Müasir dünyada dövlətlərarası inteqrasiya yalnız iqtisadi və siyasi razılaşmalarla müəyyən olunmur. Əsl inteqrasiya daha dərin səviyyədə – təhsil, düşüncə və insan kapitalı səviyyəsində formalaşır. Türk Dövlətləri Təşkilatı (TDT) son illərdə siyasi əməkdaşlıq, iqtisadi əlaqələr, nəqliyyat və logistika, enerji layihələri sahəsində müəyyən irəliləyiş əldə etmişdir.***

TDT-nin inteqrasiya proseslərinin səmərəli, davamlı olması, qarşılıqlı faydalılığı üçün əsas şərt onların təhsil sistemlərinin inteqrasiyasıdır. Əgər bu inteqrasiya prosesinin təməlində vahid təhsil sistemi və ortaq insan kapitalı yoxdursa, inteqrasiya struktur olaraq mövcud olsa da, mahiyyət etibarilə zəif qalacaqdır.

Təhsil sistemlərinin inteqrasiyası necə olmalıdır? Bu struktur, yoxsa şüur məsələsidir? Əksər regional təşkilatlarda olduğu kimi, TDT çərçivəsində də inteqrasiya daha çox aşağıdakı sahələrdə fokuslanır: iqtisadi əməkdaşlıq, infrastruktur layihələri, diplomatik koordinasiya. Lakin bu yanaşma zəifdir, çünki o, sistem yaradır, amma düşüncə, şüur yaratmır. Böyük türk ideoloqu İsmayıl bəy Qaspıralının «Dildə, işdə, fikirdə birlik» ideyasının 21-ci əsrdə reallaşması üçün ilk növbədə təhsildə birlik olmalıdır. Bu yanaşmanı fikirdə bilik yarada bilər. Bu isə səmərəli inteqrasiya üçün çox vacibdir.

Tarixi təcrübə göstərir ki, Avropa Birliyi Erasmus proqramı və Boloniya prosesi ilə ortaq nəsil formalaşdırdı, ABŞ universitetlər vasitəsilə qlobal elita yaratdı, Çin təhsil və texnologiya ilə milli model qurdu. Bu nümunələr sübut edir ki, təhsil inteqrasiyası olmadan heç bir regional birlik davamlı ola bilməz. TDT-nin yaranması türk dövlətlərinin sürətli inkişafına təkan verə bilər. Bizim belə inkişafa xüsusi ilə ehtiyacımız var.

**Rəqəmsal sivilizasiya dövrü və yeni reallıq.** XXI əsrdə klassik inteqrasiya modelləri artıq kifayət etmir. Bu gün əsas güc faktorları dəyişmişdir. Samuel P.Huntington sivilizasiyalararası qarşıdurmanı mədəni əsasda izah edirdi. Lakin müasir reallıq göstərir ki, sivilizasiyalar artıq mədəni sərhədlərlə deyil, rəqəmsal platformalar və alqoritmlərlə müəyyən olunur. Qarşıdurmalar və təhlükələr də artıq rəqəmsal platformalar səviyyəsindədir. Bu kontekstdə data yeni resurs, alqoritm yeni idarəetmə aləti, platforma yeni mühit olaraq çıxış edir. Bu isə təhsilin rolunu köklü şəkildə dəyişir. Təhsil artıq sosial institut deyil, geosiyasi alətdir.



Dos. İlham Əhmədov

**TDT üçün əsas problem parçalanmadır.** Hazırda TDT ölkələri arasında təhsil sahəsində aşağıdakı problemlər mövcuddur: fərqli kurikulumlar, diplomların tam tanınmaması, zəif akademik mobillik, vahid platformanın olmaması, rəqəmsal resursların parçalanması, bəzi üzv dövlətlərdə elm və təhsilin ciddi tənəzzülü. Deməli inteqrasiya niyyəti var, buna ciddi tələbat var, amma sistem yoxdur.

Boloniya modelinin TDT analoqu yaradılmalıdır. Boloniya prosesi Avropada ali təhsilin inteqrasiyasını təmin edən ən uğurlu modellərdən biridir. Bu modelin əsas elementləri vahid kredit sistemi (ECTS), diplomların qarşılıqlı tanınması, akademik mobillik, keyfiyyət standartlarıdır. Bu sistemin uğuru təsadüfi deyil. Onun əsasında belə bir prinsip dayanır: standartlaşma+mobililik+inteqrasiya.

TDT üçün indiki mərhələdə əsas seçim bu modelə uyğun yeni model qurmaq, yoxsa da bu modeli adaptasiya etmək kimi starateji qərar qəbuludur.

***Rəqəmsal əməkdaşlıq yeni mərhələ açır. Bugünkü şəraitdə təhsil inteqrasiyası artıq yalnız fiziki mobilliklə məhdudlaşmır. Yeni model virtual universitetlər, SI əsaslı təhsil, onlayn platformalar, data əsaslı idarəetmə üzərində qurulur. Bunun üçün isə rəqəmsal təhsil ekosistemi yaradılmalıdır. Bu ekosistem olmadan inteqrasiya yarımçıq qalacaqdır.***

**Türkdilli universitetlərin rolu.** Türkdilli universitetlər bu prosesin mərkəzində olmalıdır. Çünki onlar insan kapitalı formalaşdırır, elmi bilik yaradır, mədəni identikliyi qoruyur. Bu baxımdan onların əməkdaşlığı akademik məsələ deyil, strateji məsələdir.

Vahid informasiya təhsil məkanı zəruridir. TDT üçün optimal model aşağıdakı komponentlərdən ibarət ola bilər:

- ***Rəqəmsal universitet platforması. Bu məqsədlə ortaq LMS və SI tutor sistemi yaradılmalıdır.***
- ***Vahid akademik standartlar yaradılmalıdır. Boloniya prosesinə uyğun, kredit sistemli.***
- ***Vahid elektron kitabxana qurulmalıdır. Bu məqsədlə ortaq kontent, açıq resurslar təqdim edilməlidir.***
- ***Virtual mobillik təmin edilməlidir. Bunun üçün onlayn kurslar, birgə proqramlar yaradılmalıdır.***

***Əsas problem gecikməyimizdir. Ən ciddi problem budur ki, TDT bu prosesi gec başlasa, artıq mövcud qlobal platformalar dominant olacaqlar. Bu isə asılılıq, mədəni təsirin zəifləməsi, data itkisi ilə nəticələnə bilər. Strateji seçim etməliyik, biz istehlakçı, yoxsa yaradıcıyıq? TDT ölkələri qarşısında belə mühüm seçim var:***

- ***İstehlakçı modeli seçmək. Bu zaman xarici platformalar və hazır sistemlərdən istifadə edəcəyik.***
- ***Yaradan model seçmək. Bu halda öz platformamız, öz standartlarımız olacaqdır. Bu seçim texnoloji deyil, sivilizasiya seçimidir.***

Bu təhlil göstərir ki, TDT-nin inkişafı təhsil inteqrasiyası olmadan mümkün deyil. Rəqəmsal əməkdaşlıq bu prosesin əsas aləti, vahid standartlar (məzmun və texnoloji) inteqrasiyanın əsas şərtidir. Bu baxımdan türkdilli universitetlərin rəqəmsal əməkdaşlığı sadəcə təhsil məsələsi deyil, gələcək yeni yaranan sivilizasiya modelinin əsas elementidir. Əgər Türk Dövlətləri Təşkilatı vahid informasiya təhsil məkanı və ortaq akademik standartlar yarada bilməzsə, onun inteqrasiyası struktur səviyyəsində qalacaq və real sivilizasiya gücünə çevrilməyəcək. Bu, hər üzv dövlətin ziyanınadır. İndiki geosiyası durumda TDT güclü, monolit və dinamik olmalıdır. Amma uğurlu inteqrasiya edilərsə, TDT XXI əsrdə yeni rəqəmsal sivilizasiya modelinin əsas iştirakçılarından biri ola bilər.

Buna bütün TDT üzvlərinin ehtiyacı var, bizim isə daha çox ehtiyacımız var. Çünki elm, təhsil, texnologiya sahəsində biz üzv ölkələrdən çox şey öyrənə bilərik. ETN-in nümayəndə heyətinin Qazaxıstan səfəri bunu əyani göstərdi.

# Təhsilalan və təhsilverənlərin vergi mədəniyyəti və maliyyə savadlılığının artırılmasına dair tədbirlərə başlanılır

Elm və Təhsil Nazirliyi ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti arasında əməkdaşlıq çərçivəsində təhsilalan və təhsilverənlər arasında vergi mədəniyyəti və maliyyə savadlılığının artırılmasına dair 2026-cı il üzrə Tədbirlər Planı təsdiqlənib.

Tədbirlər Planına əsasən, ümumi təhsil pilləsində təlim-tədris və idarəetmə prosesinə vergi mədəniyyəti və maliyyə savadlılığının sistemli inteqrasiyası, təhsilalanlar arasında müsabiqələrin və maarifləndirici ekskursiyaların təşkili, peşə və ali təhsil müəssisələrində tələbələrin vergi savadlılığının və işə qəbul imkanlarının artırılması, həmçinin elektron maarifləndirici resursların hazırlanması və paylaşılması nəzərdə tutulur. Bu çərçivədə orta və ali təhsil müəssisələrində vergi ilə bağlı biliklərin daha interaktiv və müasir tədris metodları ilə təqdim edilməsi gözlənilir.

Eyni zamanda, maliyyə və vergi sahələri üzrə elmi araşdırmalar üçün məlumat mübadiləsinin təşkili, gənc tədqiqatçıların dəstəklənməsi, ali təhsil müəssisələrində bu sahəni tədris edən müəllimlərin peşəkar inkişafına yönəlmiş təlimlərin keçirilməsi istiqamətində işlər aparılacaq. Bununla yanaşı, gender bərabərliyi və inklüzivliyin təşviqi məqsədilə müvafiq tədbirlərdə tələbə xanımların təmsilçiliyinin artırılması, eləcə də vergilərin ödənilməsinin vacibliyini və düzgün vergi davranışını təşviq edən materialların hazırlanaraq ictimailəşdirilməsi planlaşdırılır.

# Ələt azad iqtisadi zonası üzrə İşçi Qrupun III iclası keçirilib



Ələt azad iqtisadi zonasının inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə yaradılmış İşçi Qrupun III iclasında Zonada həyata keçirilən layihələr, infrastruktur quruculuğu və investorların cəlbi məsələləri müzakirə olunub.

Ələt azad iqtisadi zonasının inkişafının təmin edilməsi məqsədi ilə yaradılmış İşçi Qrupun III iclası keçirilib.

İqtisadiyyat naziri, İşçi Qrupun rəhbəri Mikayıl Cabbarovun iştirakı ilə keçirilən iclasda Ələt azad iqtisadi zonasının fəaliyyətinin səmərəli təşkili və investisiyaların cəlb edilməsi ilə bağlı məsələlər ətrafında müzakirələr aparılıb.

Bildirilib ki, Ələt azad iqtisadi zonasında qabaqcıl idarəetmə təcrübəsinə əsaslanan, yüksək əlavə dəyər yaradan və ixracyönümlü istehsalı təşviq etmək məqsədilə işlər davam etdirilir.

Tədbirdə Ələt azad iqtisadi zonasında beynəlxalq hava limanının tikintisi və infrastrukturun qurulması işlərinin icra vəziyyəti barədə məlumat verilib. Azad iqtisadi zonada qeydiyyatdan keçmiş və fəaliyyətə başlamış şirkətlər, bir sıra investorlar tərəfindən təqdim olunan layihələr diqqətə çatdırılıb. Vurğulanıb ki, Zonanın fəaliyyətinin gücləndirilməsi innovativ texnologiyalar tətbiq edən investorların cəlb edilməsi, onların yerli şirkətlərlə əməkdaşlığının genişləndirilməsi, eləcə də yeni iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

# Beynəlxalq reytinq agentliyi "PAŞA Bank"a "Ba2" reytinqi verib

Beynəlxalq reytinq agentliyi Moody's Ratings PAŞA Bank-ın fəaliyyətini qiymətləndirərək Bankın uzunmüddətli yerli və xarici valyutada depozit reytinqini "Ba2" səviyyəsində və reytinq üzrə proqnozu isə "müsbət" olaraq müəyyən edib. Bu barədə "PAŞA Bank"ın yaydığı məlumatda bildirilir.

Agentliyin qiymətləndirməsinə əsasən, ölkənin ən böyük üç bankından biri olan PAŞA Bank kredit və depozit bazarında mühüm mövqeyə malikdir. Bankın "ba3" səviyyəli kredit dayanıqlığı (BCA) güclü kapital mövqeyi, adekvat gəlirlilik və yüksək likvidlik göstəriciləri ilə dəstəklənir.

Moody's eyni zamanda Bankın gələcək perspektivləri ilə bağlı müsbət gözləntilərini qeyd edib. Kapitalın yüksək səviyyədə qorunması, güclü likvidlik göstəriciləri və sabit gəlirlilik növbəti 12–18 ay ərzində Bankın dayanıqlığını təmin edən əsas amillər kimi dəyərləndirilir.

PAŞA Bank-ın İdarə Heyətinin üzvü və baş maliyyə inzibatçısı Murad Süleymanov bildirib ki, Moody's tərəfindən verilən qiymətləndirmə Bankın maliyyə dayanıqlığını və idarəetmə keyfiyyətini bir daha təsdiqləyir:

"Moody's tərəfindən təsdiqlənmiş reytinqlər və təqdim edilən müsbət proqnoz maliyyə dayanıqlığımızın və inkişaf strategiyamızın beynəlxalq səviyyədə tanındığını göstərir. Bu qiymətləndirmə həm maliyyə göstəricilərimizi, həm də şəffaf, məsuliyyətli idarəetmə yanaşmamızı aydın şəkildə əks etdirir."

Moody's-in açıqlamasında qeyd olunur ki, Bankın kapital adekvatlığı ölkə üzrə yüksək səviyyələrdən biridir və qarşıdakı dövrdə də güclü qalacağı gözlənilir. Eyni zamanda, aktiv keyfiyyətində yaxşılaşma tendensiyası müşahidə olunur ki, bu da qeyri-neft sektorunun inkişafı fonunda borcalanların ödəmə qabiliyyətinin artması ilə dəstəklənir.

Likvidlik baxımından da Bank güclü mövqeyə malikdir – likvid aktivlər ümumi aktivlərin əhəmiyyətli hissəsini təşkil edir və maliyyələşmənin əsas hissəsi müştəri depozitləri hesabına təmin olunur.

Bununla yanaşı, Standard & Poor's 2026-cı ildə PAŞA Bank-ın kredit reytinqini "BB-/B" səviyyəsində "müsbət" proqnozla təsdiqləyib. Bank eyni zamanda International Investor Magazine tərəfindən 2026-cı il üzrə "Azərbaycanın ən yaxşı bankı" və "Azərbaycanın ən yaxşı KOS bankı" seçilib.

Son illərdə PAŞA Bank bir sıra nüfuzlu beynəlxalq mükafatlara da layiq görülüb. 2024–2025-ci illərdə Euromoney, Global Finance və Stevie Awards tərəfindən təltif olunan Bank, o cümlədən "İlin şirkəti" nominasiyasında "Gold Stevie" mükafatını qazanan ilk Azərbaycan bankı olub.

## Azərbaycanda "yaşıl enerji"nin gündəlik payı 36%-i keçib

Aprelin 20-də ölkədə istehsal olunan elektrik enerjisinin 36,5 faizi bərpa olunan enerji mənbələrinin payına düşüb.

Trend bu barədə Energetika Nazirliyinə istinadən xəbər verir. Belə ki, aprelin 20-də ümumilikdə 64,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun 23,5 milyon kilovat-saatı məhz bərpa olunan mənbələr hesabına təmin olunub.

Elektrik enerjisinin 15,9 milyon kilovat-saatı su elektrik stansiyalarında, 7,6 milyon kilovat-saatı isə günəş və külək elektrik stansiyalarında istehsal olunub. Külək və günəş enerjisi birlikdə ümumi elektrik enerjisi istehsalının 12 faizini təşkil edib.



Qeyd edək ki, Energetika Nazirliyinin məlumatına görə, 2026-cı ilin 1-ci rübü üzrə operativ məlumatlara əsasən, Azərbaycanda elektrik enerjisinin istehsalı 6 milyard 991 milyon kVt·st olub.

Bu dövrdə istilik elektrik stansiyalarında (İES) 6 milyard 66 milyon kVt·st, su elektrik stansiyalarında (SES) 510,5 milyon kVt·st, digər mənbələr üzrə isə 414,5 milyon kVt·st, o cümlədən külək elektrik stansiyalarında 247,7 milyon kVt·st, günəş elektrik stansiyalarında 91,3 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 75,5 milyon kVt·st elektrik enerjisi istehsal edilib.

Yanvar-mart aylarında 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə külək elektrik stansiyalarında elektrik enerjisi istehsalı 238,2 milyon kVt·st artıb. Ümumilikdə SES-lər də daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalı 925 mln. kVt·st təşkil edib.

Rüb ərzində elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 6 milyard 76,8 milyon kVt·st (İES-lərdə 5 milyard 558,6 milyon kVt·st, SES-lərdə 508,1 milyon kVt·st, GES-lərdə 10,1 milyon kVt·st), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 7,9 milyon kVt·st, müstəqil elektrik stansiyaları üzrə isə 906,3 milyon kVt·st təşkil edib.

Hesabat dövründə elektrik enerjisinin ixracı 142,4 milyon kVt·st, idxalı isə 35,0 milyon kVt·st olub.

# "Bakı-Ət" ASC-nin 31 dekabr 2025-ci il tarixinə BALANS HESABATI

| MALİYYƏ VƏZİYYƏTİ | Qeyd | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 7 | 277510,70 | 292181,57 |
| Qeyri-maddi aktivlər | | 0,0 | 0,0 |
| Verilmiş borclar | | 0,0 | 0,0 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | 0,0 | 0,0 |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **277510,70** | **292181,57** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 8 | 0,00 | 376,20 |
| Qısamüddətli debitor borcları | 9 | 0,00 | 0,00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 116,87 | 987,60 |
| Sair qısamüddətli aktivlər | 10 | 63731,99 | 62367,66 |
| Kapital qoyuluşu | | 120693,01 | |
| **Cəmi qısamüddətli aktivlər** | | **184541,87** | **63731,46** |
| **CƏMİ AKTİVLƏR** | | **462052,57** | **355913,03** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 14 | 1268770,00 | 1268770,00 |
| Kapital ehtiyatları | | 0,00 | 0,00 |
| Bölüşdürülməmiş mənfəət | 22 | **-1123144,87** | **-1180410,61** |
| **CƏMİ KAPİTAL** | | **145625,13** | **88359,39** |
| **Öhdəliklər** | | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli borclar | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| ***Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər*** | | | |
| Qısamüddətli borclar | | | |
| Qısamüdətli kreditor borcları | 12 | 203398,30 | 196591,55 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 11 | 25430,55 | 23472,86 |
| Sair qısamüdətli öhdəliklər | 13 | 87598,59 | 47489,23 |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **316427,44** | **267553,64** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **316427,44** | **267553,64** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **462052,57** | **355913,03** |

| mənfəət və zərər | Qeyd | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | | | |
| Satışın maya dəyəri | | | |
| **Ümumi mənfəət (zərər)** | | | |
| Sair əməliyyat gəlirləri (daşınmaz əmlakın icarəsindən) | 16 | 663901,62 | 560478,04 |
| Kommersiya xərcləri | 19 | (470783,05) | (461465,58) |
| İnzibati xərclər | 18 | (36244,64) | (35656,52) |
| Sair əməliyyat xərcləri | | | |
| Əsas vəsaitin satışından gəlirləri | | | 2711,86 |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Məzənnə fərqi | | | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | 22 | **156873,93** | **66067,80** |
| keçmiş ilin zərəri | | | |
| **Vergiyə cəlb olunan mənfəət** | | **156873,93** | **66067,80** |
| Mənfəət vergisi | | **(31374,79)** | **(13213,56)** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 15 | **125499,14** | **52854,24** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | 14 | | **634385** |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti/zərəri** | | | **0,0833** |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixə qalıq** | **15** | **1221866,00** | **0,00** | **-1289952,55** | **-68086,55** |
| 2024-ci il üzrə xalis mənfəət (zərər) | 22 | | | 52854,24 | **52854,24** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 46904,38 | | | **46904,38** |
| Elan edilmiş dividendlər | | | | -44474,02 | **-44474,02** |
| Maddələr arasındasair köçürmələr | | | | 101161,72 | **101161,72** |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | | **1268770,38** | **0** | **-1180410,61** | **88359,77** |
| 2025-ci il üzrə xalis mənfəət | 22 | | | 125499,14 | **125499,14** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | -55752,43 | **-55752,43** |
| Maddələr arasında sair köçürmələr | | | | -12480,97 | **-12480,97** |
| **31 dekabr 2025-ci il tarixə qalıq** | | **1268770,38** | | **-1123144,87** | **145625,51** |

| PUL VƏSAİTLƏRININ HƏRƏKƏT | Qeyd | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | 22 | 156873,93 | 66067,80 |
| Mənfəət vergisi üzrə xərclər | | (31374,79) | (13213,56) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 7 | 17437,42 | 22228,86 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | | |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | | 376,20 | |
| Debitor borcları üzrə artma/azalma | 9 | | |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | 10 | (1364,33) | (5684,26) |
| Cari vergi və sosial sığortaöhdəlikləri üzrə artma/azalma | 11 | 1957,69 | 4099,47 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | 12 | 6806,75 | (834,64) |
| Sair qısamüddətli kreditor borcları | 13 | | 21201,82 |
| Sair qısamüddətli öhdəliklər | | 40109,36 | (48889,33) |
| Ödənilmiş vergi öhdəlikləri | | | |
| Sair | | (15244,52) | 80199,46 |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **175574,71** | **124995,62** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | | | (81678,00) |
| Qeyri-maddi aktivlərin alınması | | | |
| kapital qoyuluşları | | (120693,01) | |
| Xaricolmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **(120693,01)** | **(81678,00)** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşu | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | -55752,43 | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(55752,43)** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **(870,73)** | **(1156,40)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | | **987,60** | **2144,00** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 11 | **116,87** | **987,60** |
| **İl ərzində artım/azalma** | | **(870,73)** | **(1156,40)** |

**"KH.J.A AUDİT-CONSULTİNQ XİDMƏTİ" MMC**

**Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02**
**xaladdin-aliyev@mail.ru VÖEN;1604961411**
**İCAZƏ A/T 256; 25 noyabr 2022-ci il**

**"Bakı-Ət" ASC-nin rəhbərliyinə və səhmdarlrına**
**Müstəqil auditorun hesabatı**

**Rəy** 6RdoL6wwTg

Mən "Bakı-Ət" ASC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən İdarə Heyətinin Sədrinə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin İdarə Heyətinin Sədrə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm. Sədrin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verminin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandınlmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 31.03.2026-cı il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "**Bakı-Ət" ASC–nin** rəhbərliyinə və səhmdarlarına təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

**"KH.J.A Audit-Consultinq Xidməti"MMC**
**Direktor- auditor: X.C.Əliyev**
**M.Y**

**31 mart 2026-cı il**

# Azərbaycan və Latviya Baltik regionu ilə Cənubi Qafqazı bir-birinə yaxınlaşdırır

Latviya Prezidenti Edgars Rinkeviçsin 21-23 aprel tarixlərində Azərbaycana səfəri və Latviya–Azərbaycan biznes forumunun keçirilməsi ikitərəfli əməkdaşlığın fəal şəkildə genişləndirilməsi fonunda baş tutur.

Bu gün Azərbaycan və Latviya Baltik region ilə Cənubi Qafqaz arasında strateji yaxınlaşmanı inkişaf etdirərək dəyişən geosiyasi reallıqda siyasi dialoqun, iqtisadi əməkdaşlığın və regionlararası əlaqəliliyin yeni səviyyəsini formalaşdırır.

Latviyanın xarici işlər naziri Bayba Braje Trend-ə verdiyi özəl müsahibədə bildirib ki, ölkələr arasındakı münasibətlər artıq xeyli zamandır ki, keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

"Bundan əlavə, 2017-ci ildən etibarən bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilib ki, bu da qarşılıqlı etimad və anlayışın yüksək səviyyədə olmasından xəbər verir. Mövcud qeyri-sabit geosiyasi şəraitdə belə strateji münasibətlərin əhəmiyyətini qiymətləndirmək çətindir", - deyə nazir vurğulayıb.

Onun sözlərinə görə, Latviya ilə Azərbaycan arasında münasibətlər ənənəvi olaraq yaxın və konstruktiv xarakter daşıyır, yüksək səviyyəli siyasi dialoqu, parlamentlərarası mübadilələri, sahəvi əməkdaşlığı, iqtisadi əlaqələri və insanlararası təmasları əhatə edir.



## Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb

Aprelin 21-də Ermənistana 16 vaqon həcmində (974 ton) dizel yanacağı göndərilir.

Ümumilikdə indiyədək Azərbaycandan Ermənistana 7610 ton dizel yanacağı, 979 ton Aİ-92 markalı benzin və 2955 ton Aİ-95 markalı benzin yola salınıb.

Qeyd edək ki, enerji resurslarının ixracı regionda iqtisadi əməkdaşlığın genişlənməsi və qarşılıqlı ticarət əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.



## Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə Türkiyə ərazisindən nəql olunan neftin həcmi açıqlanıb

Cari ilin mart ayında Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC) vasitəsilə Türkiyə ərazisindən 16,412 milyon barel neft nəql olunub.

Bu barədə Trend Türkiyənin "BOTAŞ" şirkətinə istinadən məlumat verir. Müqayisə üçün qeyd edək ki, 2025-ci ilin mart ayında bu göstərici 18,625 milyon barel təşkil edib. Beləliklə, nəql həcmi illik ifadədə təxminən 11,9 faiz azalıb. 2026-cı ilin yanvar-mart aylarında BTC vasitəsilə Türkiyə ərazisindən 47,354 milyon barel neft nəql olunub.

Xatırladaq ki, 2025-ci ildə BTC ilə Türkiyə ərazisindən ümumilikdə 206,434 milyon barel neft nəql edilib. Müqayisə üçün, 2024-cü ildə bu göstərici 224,142 milyon barel olub. Beləliklə, nəql həcmi 7,9 faiz azalıb.

# Arif Ələkbər: "Məqsədim sadəcə şəkil göstərmək yox, hekayə danışmaqdır"





**Müsahibimiz İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, fotoqraf, səyyah, Azərbaycan Fotoqrafları Birliyinin İdarə Heyətinin üzvü Arif Ələkbərdir.**

*– Arif müəllim, iş yoldaşlarınız Sizi həm də fotoqraf-səyahətçi kimi tanıyır. Bu yol necə başladı?*

– Fotoqrafiyaya marağım çox erkən yaşlarıma təsadüf edir. Uşaqlıqda televiziya ekranında gördüyüm kadrları fotoaparatla "tutmaq" istəyi məni fotoqrafiya dünyasına bağladı. O vaxtlar texniki imkanlar çox məhdud idi, amma bu məhdudiyyətlər marağımı azaltmadı, əksinə, daha da gücləndirdi. Fotoqrafiya mənim üçün tədricən sadəcə maraq deyil, düşüncə tərzinə çevrildi. Fotoqrafiya ilə məşğul olmaq yalnız kamera götürüb çəkmək deyil. Bu, müşahidə etmək, gözləmək, səbr etmək və anı hiss etmək bacarığıdır. Mənim üçün fotoqrafiya dünyanı daha dərindən anlamağın bir yoludur.

*– Səyahətləriniz arasında Afrika xüsusi yer tutur. Bu qitə Sizi niyə bu qədər cəlb edir?*

– Təkcə Afrika təəssüratları ilə yadda qalmır. Məsələn, İndoneziyanın Mentavai arxipelaqında cəngəlliklərin qoynunda Sakuddey qəbiləsi ilə keçirdiyim üç gün, Braziliyanın Pantanal bölgəsində yaquarlarla qarşılaşmalarım, Hindistanda bəbir və pələngləri vəhşi təbiətdə izlədiyim anlar və s. — bütün bunlar səyahət və fotoqrafiya dünyamda silinməz izlər buraxıb. Amma Afrika mənim üçün sadəcə coğrafiya deyil, bir hissdir.

İlk dəfə Afrikaya gedəndə uşaqlıqdan tanıdığım vəhşi təbiəti real həyatda gördüm. Serengeti, Massai-Mara, Etoşa – bunlar yalnız ad deyil, canlı həyatdır. İnsanlar çox kasıb ola bilər, amma üzlərində qəribə bir rahatlıq və xoşbəxtlik var. Bu paradoks məni çox düşündürdü və çəkdiyim fotolara da təsir etdi.

*– Vəhşi təbiətdə çəkilişlər qorxulu olmur ki?*

– Kənardan baxanda təhlükəli görünə bilər, amma əslində hər şey qaydalar çərçivəsindədir. Safari zamanı heyvanlar avtomobili bir obyekt kimi qəbul edirlər, təhlükə hiss etmirlər. Fil, şir və ya bəbiri bir neçə metr məsafədən görmək insanda həm qorxu, həm də heyranlıq yaradır.

Bu anları linza ilə tutmaq isə böyük məsuliyyətdir.

*– Fotoqraf kimi Sizi ən çox hansı janr cəlb edir?*

– Təbiət, vəhşi həyat və qəbilələr. Mən insanı təbiətin bir parçası kimi görürəm. Uzaq qəbilələr, şəhərdən kənar həyat, sadə insanların gündəlik ritmi – bunlar məni çox maraqlandırır. Süni səhnələrdən çox, real anları sevirəm.

*– Nailiyyətləriniz arasında Sizin üçün xüsusi yeri olan məqam hansıdır?*

– Çəkdiyim fotolardan birinin "National Geographic"in onlayn platformasında "Editor's Choice" seçilməsi mənim üçün çox önəmli idi. Bu, təkcə uğur deyil, doğru yolda olduğumun təsdiqi idi. Bundan əlavə, müxtəlif beynəlxalq platformalarda işlərimin nümayiş olunması, keçirilən foto-sərgilərim, sosial şəbəkələrdə paylaşımlarıma göstərilən maraq mənə əlavə motivasiya verir.

*– Azərbaycan Fotoqrafları Birliyinin (AFB) İdarə Heyətində üzvlüyünüz Sizin üçün nə ifadə edir?*

– AFB üzvlüyü mənim üçün böyük dəyərdir. Bu, təkcə status deyil, həm də peşəkar bir ailənin parçası olmaqdır. Birliyin fəaliyyəti, sərgilər, layihələr fotoqrafların inkişafı üçün çox önəmlidir. Bu mühitdə olmaq mənə həm məsuliyyət, həm də stimul verir. Bu arada qeyd edim ki, Birliyin təşəbbüsü ilə fevral ayında Mingəçevirdəki Heydər Əliyev Mərkəzində növbəti fotosərgim təşkil olunmuşdu.

*– Gələcək planlarınız nələrdir?*

–Səyahətlər də axarı ilə davam edəcək. Mavritaniya, Avstraliyanın fauna ilə zəngin şimal bölgəsi planlarım arasındadır. Eyni zamanda, topladığım materialları sərgi və foto-layihələr şəklində təqdim etmək istəyirəm. Məqsədim sadəcə şəkil göstərmək yox, hekayə danışmaqdır.

*– Sonda gənc fotoqraflara nə tövsiyə edərdiniz?*

– Texnikaya çox aludə olmasınlar. Əsas olan baxış bucağıdır. Çox müşahidə etsinlər, səbirli olsunlar və öz yollarını tapsınlar. Ən önəmlisi isə – fotoqrafiyanı sevsinlər.

# Dr.S.İbrahimova: "SATLARS T8 texnologiyasının tətbiqi laborator diaqnostikanın iş prinsipində keyfiyyətcə yeni mərhələyə keçiddir"

*Bu müsahibədə Mərkəzi Gömrük Hospitalının Laboratoriya şöbəsinin rəisi, həkim-laborant Səbinə İbrahimova şöbədə yeni texnologiyanın tətbiqindən danışır.*



**- Səbinə xanım, Mərkəzi Gömrük Hospitalının Laboratoriya şöbəsində SATLARS T8 texnologiyası tətbiq olunub. Bu yeniliyi necə qiymətləndirirsiniz?**

– SATLARS T8 texnologiyasının laboratoriyamıza tətbiqi bizim üçün sadəcə yeni bir cihazın istifadəyə verilməsi deyil, bütövlükdə laborator diaqnostikanın iş prinsipində keyfiyyətcə yeni mərhələyə keçid deməkdir. Müasir tibbdə laborator nəticələrin dəqiqliyi və sürəti həkim qərarlarının əsasını təşkil edir. Bu baxımdan SATLARS T8 bizə həm texnoloji, həm də təşkilati baxımdan ciddi üstünlüklər qazandırır. Sistem laborator prosesləri tam avtomatlaşdıraraq insan faktorundan yaranan mümkün riskləri minimuma endirir və nəticələrin daha stabil və etibarlı olmasını təmin edir.

**- Bu sistem laboratoriya iş prosesinə konkret olaraq necə təsir göstərir?**

– Ən mühüm dəyişiklik iş axınının tam inteqrasiya olunmuş şəkildə idarə edilməsidir. Əvvəllər laboratoriyada müxtəlif mərhələlər – nümunənin qəbul olunması, analizə hazırlanması, icrası və nəticənin verilməsi – daha çox ayrı-ayrı proseslər kimi həyata keçirilirdi. SATLARS T8 isə bütün bu mərhələləri vahid sistemdə birləşdirir.

Bu, həm vaxt itkisinin azalmasına, həm də iş prosesində daha yüksək koordinasiyaya gətirib çıxarır. Eyni zamanda, laboratoriya personalının iş yükü daha səmərəli şəkildə paylanır və resurslardan daha optimal istifadə olunur. Nəticədə ümumi məhsuldarlıq və xidmət keyfiyyəti əhəmiyyətli dərəcədə artır.

**- SATLARS T8 texnologiyasının əsas texnoloji üstünlükləri nələrdir?**

– Bu sistemin ən mühüm üstünlüklərindən biri süni intellekt dəstəyi ilə işləməsidir. Süni intellekt preanalitik mərhələdə nümunələrin düzgün idarə olunmasına, potensial səhvlərin əvvəlcədən aşkarlanmasına və prosesin optimallaşdırılmasına kömək edir.

Bundan əlavə, SATLARS T8 çoxmodullu inteqrasiya imkanlarına malikdir. Yəni müxtəlif analiz platformaları bir sistem daxilində bir-biri ilə sinxron şəkildə işləyə bilir. Bu isə laboratoriyada paralel analizlərin aparılmasına və nəticələrin daha qısa müddətdə əldə olunmasına şərait yaradır.

**- Hazırda sistem hansı platformaları birləşdirir və onların funksiyaları nədən ibarətdir?**

– Hazırda SATLARS T8 iki əsas platformanı birləşdirir. Birincisi MAGLUMI X8 sistemidir. Bu cihaz kemilüminessens immunoanaliz (CLIA) metodu ilə işləyir və çox geniş test panelinə malikdir. Onun əsas üstünlüyü yüksək həssaslıq və dəqiqliklə müxtəlif hormon, infeksiya və digər biomarkerlərin təyin edilməsidir. Bu, klinik qərarvermə prosesində həkimlər üçün çox vacib informasiya yaradır.

İkinci platforma isə Bioassay C8 biokimyəvi analizator. Bu cihaz qanda biokimyəvi göstəricilərin – qaraciyər, böyrək funksiyaları, lipid profili və digər parametrlərin – yüksək dəqiqliklə ölçülməsini təmin edir. Onun sabit və etibarlı nəticələr verməsi laborator diaqnostikanın keyfiyyətini daha da yüksəldir.

**- Bu texnologiya pasiyentlər üçün nə kimi real üstünlüklər yaradır?**

– Ən vacib üstünlük nəticələrin daha qısa zamanda təqdim olunmasıdır. Bu, xüsusilə təcili hallarda həkimlərin daha sürətli qərar verməsinə imkan yaradır. Eyni zamanda, yüksək dəqiqlik sayəsində yanlış nəticə ehtimalı azalır və müalicə prosesinin düzgün istiqamətdə aparılması təmin olunur.

Digər mühüm məqam isə pasiyent məmnuniyyətidir. İnsanlar artıq analiz cavablarını daha tez alır, bu da ümumi tibbi xidmət təcrübəsini daha rahat və etibarlı edir.

**- Keyfiyyətə nəzarət necə həyata keçirilir?**

– Laboratoriyamızda tətbiq olunan bütün sistemlər beynəlxalq standartlara uyğun olaraq daxili keyfiyyətə nəzarət (IQC) və xarici keyfiyyətin qiymətləndirilməsi (EQC) proqramları ilə dəstəklənir. Bu proqramlar mütəmadi olaraq analitik nəticələrin doğruluğunu yoxlayır və laboratoriyanın fəaliyyətinin beynəlxalq tələblərə uyğunluğunu təmin edir. Bu yanaşma həm pasiyentlər, həm də həkimlər üçün əlavə etibarlılıq zəmanəti yaradır. Bizim əsas prioritetimiz maksimum dəqiqlik və etibarlılığın təmin olunmasıdır

**- Gələcək planlar barədə nə deyə bilərsiniz?**

– SATLARS T8 açıq və genişlənə bilən bir platformadır. Bu o deməkdir ki, gələcəkdə laboratoriyaya yeni texnoloji cihazlar əlavə olunduqca sistemə inteqrasiya edilə bilər. Bu da laboratoriyanın daim inkişaf edən, müasir tələblərə uyğun bir strukturda qalmasını təmin edir.

Bizim məqsədimiz laborator diaqnostikanı yalnız bugünkü tələblərə deyil, gələcəyin tibb modelinə də uyğunlaşdırmaqdır.

**- Sonda ümumi olaraq bu yeniliyi necə qiymətləndirirsiniz?**

– SATLARS T8 texnologiyası laboratoriyamız üçün strateji transformasiya mərhələsini ifadə edir. Bu sistem yalnız operativliyi deyil, həm də analitik dəqiqliyi, keyfiyyətin davamlılığını və klinik qərarverməyə töhfəni əhəmiyyətli dərəcədə artırır.

Mərkəzi Gömrük Hospitalı olaraq məqsədimiz laborator diaqnostikanı 'future-ready laboratory' konsepsiyasına uyğun şəkildə inkişaf etdirərək pasiyentlərə yüksək səviyyəli, etibarlı və sübuta əsaslanan tibbi xidmət göstərməkdir.

**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

## TİBBDƏ PR

# İnformasiyalaşdırma və Kommunikasiya: PR mühitində nəzəri və praktik fərqlər

Rəqəmsal informasiya axınının sürətləndiyi müasir dövrdə PR sahəsində informasiyalaşdırma ilə kommunikasiya anlayışlarının qarışdırılması geniş yayılmış tendensiyaya çevrilib. Halbuki bu iki termin həm mahiyyət, həm məqsəd, həm də nəticə baxımından fərqlənir.

**İnformasiyalaşdırma nədir?**

İnformasiyalaşdırma müəyyən faktın və ya hadisənin auditoriyaya çatdırılması məqsədi daşıyan birtərəfli məlumat ötürmə prosesidir. Bu prosesdə əsas prioritet informasiyanın dəqiq, aydın və dəyişdirilmədən təqdim olunmasıdır. Burada qarşılıqlı dialoqdan daha çox, məlumatın ünvanına vaxtında və düzgün şəkildə çatdırılması ön planda dayanır.

İnformasiyalaşdırma prosesi birtərəfli xarakter daşıyır. Yəni məlumatı ötürən tərəf aktiv, qəbul edən tərəf isə passiv mövqedə olur. Bu modeldə auditoriyanın rəy bildirməsi əsas məqsəd kimi nəzərdə tutulmur. Məqsəd müzakirə yaratmaq deyil, mövcud məlumatı çatdırmaqdır.

Bu proses emosional təsir yaratmaq üzərində qurulmur. İnformasiyalaşdırma daha çox obyektiv məlumatın ötürülməsinə əsaslanır. Burada informasiyanın məzmunu dəqiqlik, konkretlik və rəsmi üslub prinsiplərinə uyğun təqdim edilir.

İnformasiyalaşdırmanın əsas məqsədi auditoriyanı məlumatlandırmaqdır. Məsələn, hər hansı qurumun rəsmi açıqlaması, iş qrafikində dəyişiklik, yeni qərarın elan edilməsi və ya statistik göstəricilərin paylaşılması informasiyalaşdırma prosesinə aid edilir. Bu zaman əsas hədəf auditoriyanın mövcud vəziyyət barədə məlumatlı olmasını təmin etməkdir.



*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının*
*PR mütəxəssisi*

**Kommunikasiya nədir?**

Kommunikasiya qarşılıqlı və çoxtərəfli münasibətlərin qurulmasını təmin edən dinamik prosesdir. Bu proses yalnız məlumatın ötürülməsi ilə məhdudlaşmır; burada qarşı tərəfin reaksiyası, emosiyası, mövqeyi və davranışı da nəzərə alınır. Kommunikasiya qarşılıqlı anlaşma yaratmağa və əlaqəni davamlı şəkildə inkişaf etdirməyə xidmət edir.

Kommunikasiya ikitərəfli xarakter daşıyır. Yəni həm mesajı göndərən, həm də onu qəbul edən tərəf aktiv iştirakçı rolunda çıxış edir. Mesaj yalnız çatdırılmır, eyni zamanda qəbul edilir, şərh olunur və cavablandırılır. İnsanlar arasında münasibət qurularkən ton, mimika, intonasiya, bədən dili, empatiya və etibar kimi amillər mühüm rol oynayır. Mesajın necə deyildiyi, bəzən nə deyildiyindən daha təsirli olur.

Kommunikasiyanın əsas məqsədi sadəcə məlumat vermək deyil, əlaqə qurmaq və təsir göstərməkdir. Bu təsir düşüncə tərzində dəyişiklik, münasibət formalaşdırmaq, etimad yaratmaq və ya müəyyən davranışa yönləndirmək şəklində özünü göstərə bilər.

Beləliklə, kommunikasiya münasibətlərin qurulması və idarə olunması prosesidir. İnformasiyalaşdırma və kommunikasiya anlayışları zahirən oxşar görünsə də, mahiyyət və məqsəd baxımından ciddi şəkildə fərqlənir. Bu fərqlər ilk növbədə prosesin xarakterində özünü göstərir. İnformasiyalaşdırma birtərəfli prosesdir; burada məlumat bir mənbədən auditoriyaya ötürülür və qarşı tərəfin aktiv iştirakı nəzərdə tutulmur. Kommunikasiya isə ikitərəfli və ya çoxtərəfli prosesdir. Bu zaman tərəflər arasında qarşılıqlı əlaqə yaranır və hər iki tərəf prosesdə aktiv rol oynayır.

Məqsəd baxımından da fərq aydın şəkildə görünür. İnformasiyalaşdırmanın əsas məqsədi məlumat vermək və auditoriyanı müəyyən fakt və ya qərar barədə xəbərdar etməkdir. Kommunikasiyanın məqsədi isə daha genişdir: burada əlaqə qurmaq, qarşılıqlı anlaşma yaratmaq və müəyyən təsir formalaşdırmaq hədəflənir.

Nəticə etibarilə, informasiyalaşdırma auditoriyanın məlumatlı olmasına xidmət edir. Kommunikasiya isə daha dərin nəticə yaradır: qarşı tərəf yalnız xəbərdar olmur, eyni zamanda anlayır, qəbul edir və müəyyən reaksiya formalaşdırır. Bu səbəbdən kommunikasiya daha kompleks və strateji xarakter daşıyan proses hesab olunur.

*(davamı gələn sayımızda)*

# Hazırda 200-dən çox neft və 10 LNG tankeri Hörmüz boğazından keçmək üçün gözləyir



"Hazırda Körfəz bölgəsində xam neft və neft məhsulları daşıyan 200-dən çox tanker və 10 mayeləşdirilmiş təbii qaz (LNG) tankeri Hörmüz boğazından keçmək üçün gözləyir".

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, bunu Beynəlxalq Enerji Agentliyinin (BEA) icraçı direktoru Fatih Birol deyib.

O, Hörmüz boğazının açılması ilə bu tədarükün bazara çatacağını və müəyyən rahatlamanın müşahidə olunacağını bildirib.

***"Hörmüz boğazının bağlı qalması həcmi 110 trilyon dolları keçən qlobal iqtisadiyyat üçün əhəmiyyətli enerji təhlükəsizliyi riski yaradır. Qısa müddətdə bazarda gündəlik 13 milyon barel xam neft itkisi olub. Dünyanın sutkalıq neft tələbatının təxminən 100 milyon barel olduğunu nəzərə alsaq, 13 milyon barel böyük bir itkidir. Həmçinin təxminən 100 milyard kubmetr təbii qaz təchizatı itkisi var. Hazırda əvvəlki bütün enerji böhranlarından daha böyük böhran müşahidə edirik"***, - deyə icraçı direktor vurğulayıb.

Fatih Birol qeyd edib ki, Yaxın Şərqdəki hücumlar zamanı 84 enerji obyektinə ziyan dəyib, onlardan 34-ü ciddi zərər görüb. Bu obyektlərdə istehsalın normal səviyyəyə qayıtması ən azı iki il çəkəcək, bəziləri üçün isə bu proses iki ildən çox ola bilər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Məhiş Əhmədov, Zahid Məmmədov, Səbuhi Gülməmmədov Elşad Səmədzadə, Aydın Hüseynov, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**